**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ESMİRA SEYFƏL qızı ŞÜKÜROVA**

# XX ƏSR CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA POEMA JANRI: İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ PROBLEMLƏRİ

**5716.01 – Azərbaycan ədəbiyyatı**

Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Rəhim Nadir oğlu Əliyev,**
filologiya üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Nizami Qulu oğlu Cəfərov**
akademik, filologiya üzrə elmlər doktoru, professor

**Tehran Alışan oğlu Mustafayev,**
AMEA-nın müxbir üzvü,
filologiya üzrə elmlər doktoru, professor

**Almaz Əli qızı Məmmədova,**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** **Naxçıvan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə "____" _________ 2018-ci il saat ____-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az-1143, Bakı şəh., H. Cavid prospekti, 115, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı, IV mərtəbə

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ____" __________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**Elmi katibi:** **İsmixan Məhəmməd oğlu Osmanlı,**
filologiya üzrə fəlsəfə doktoru

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.**Ədəbi-bədii düşüncənin ümumi qanunauyğunluğunun, inkişaf mərhələlərinin müstəqil janrlar və onların ənənə və novatorluq xüsusiyyətləri müstəvisində tədqiq olunması müasir ədəbiyyatşünaslığın aktual problemlərindəndir.

XX əsr Cənubi Azəpbaycan ədəbiyyatı (farsdilli poetik mətnlər də daxil olmaqla) ideya-məzmun, forma, janr, sənətkarlıq və üslub baxımından bədii fikir tariximizin ayrıca bir mərhələsi kimi xapakterizə olunur. Bu mərhələdə, xüsusilə də XX əsrin 20-ci illərinin əvvəllərindən başlamış 80-ci illərin əvvəllərinədək Cənubi Azərbaycanda yaranan anadilli ədəbiyyat bəzi istisnalar olmaqla, siyasi basqı və təzyiqlər altında, əksər hallarda gizli şəkildə yayılmış, Şimali Azərbaycanda yaranan ədəbiyyatın ideya əsasını isə sovet ideologiyası, marksizm-leninizm təlimi və onun müxtəlif istiqamətlərdə təzahür edən fikir cərəyanları təşkil etmişdir.

1920-ci ildə Azərbaycan Demokratik CümhuriyyətininXI Qızıl ordu tərəfindən işğal edilməsi və Şimali Azərbaycanda sosializm cəmiyyətinin yaranmasından sonra SSRİ ilə İran arasındakı sərhəd rejimi ciddiləşdi, "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələri ilə parçalanmış bir məmləkətin – Azərbaycanın Cənubi ilə Quzeyi arasında gediş-gəliş çətinləşdi və illər keçdikcə sərhədlər tamamilə keçilməz oldu. Xalqın ictimai-siyasi taleyi kimi onun dili, təhsil sistemi, mətbuatı, mədəniyyəti də şəraitə uyğun olaraq ayrı-ayrı ideoloji istiqamətlərdə fəaliyyət göstərdi və bu tarixi ədalətsizliyin fəsadları millətin ruhunun– mənəviyyatının tərcümanı olan bədii ədəbiyyata da təsirsiz ötüşmədi.

Şimali Azərbaycan 1918-ci ilin may ayında qazandığı müstəqilliyini itirib SSRİ kimi nəhəng bir imperiyanın, xalqlar həbsxanasının kağız üzərində müttəfiq və müstəqil, əslində mərkəzi hökumətin – Moskvanın birbaşa tabeliyində olan 15 respublikanın birinə çevrilsə də, burada anadilli təhsilə, ədəbiyyat və mədəniyyətin, mətbuatın inkişafına qadağalar qoyulmadı. Ədəbiyyat, elm və mədəniyyət tərəqqipərvər cəhətləri ilə yanaşı, bir sıra zərərli, anti-milli xüsusiyyətlərə malik olan kommunist ideologiyası əsasında olsa da, sürətlə inkişaf etdi və Şimali Azərbaycanda – Azərbaycan Sovet Sosialist Respublikasında ana dilində – Azərbaycan türkcəsində şərti olaraq "sovet sosialist ədəbiyyatı və mədəniyyəti" adlandırılan nəhəng bir ədəbiyyyat və mədəniyyət yarandı.

İranda əsas ideyası milli ayrı-seçkilik və şovinizm olan Pəhləvi rejiminin hakimiyyəti altında yaşamaq məcburiyyətində qalan Cənubi Azərbaycan türkləri isə bütün milli hüquq və haqlarından məhrum edildilər. Onlara Azərbaycan dilində məktəb açmaq, mətbuat orqanları və mədəniyyət ocaqları yaratmaq bir yana, hətta ictimai yerlərdə doğma dillərində danışmaq, doğulan körpələrə türk adlarının qoyulması belə yasaq olundu. Ancaq nə qədər ağır şərtlər, basqılar altında

yaşasalar da, Cənubi Azərbaycan türkləri milli-mənəvi sərvət və əxlaqi dəyərlərini, ən başlıcası isə ana dilini qoruyub saxlamağı bacardılar.

XX əsr Cənubi Azərbaycan ədəbiyyatına Şimali Azərbaycan ədəbiyyatının təsiri danılmazdır. Hər iki tərəfin ziyalıları baş verən siyasi-ədəbi hadisələrə biganə qalmamış, mənəvi-ədəbi-mədəni körpünün dayaqlarının zəifləməsinə imkan verməmişlər. "Cənubda yeni formalaşan poeziyaya Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Əhməd Cəmil, Nigar Rəfibəyli, Məmməd Rahim kimi Quzeydən olan söz ustalarının ilhamverici təsiri güclü olmuşdur"[1].

XX əsrin I yarısında Cənubi Azəpbaycanda yaranan ədəbiyyat 40-50-ci illər Azərbaycan sovet ədəbiyyatşünaslığının diqqətindən, demək olar ki, kənarda qalmışdı. Həmin illərdə Cəfər Xəndanın "Azərbaycan məcmuəsi" (1948), "Mirzə Əli Möcüz Şəbüstəri", "Səid Səlmasi" (1947), "Mirzə Əli Ləli" (1947), "Bayraməli Abbaszadə" (1947) və başqaları barədə tədqiqatları[2]və Qulam Məmmədlinin Heyran xanım, Ş.M.Xiyabani və b. haqqında axtarışları, Kamal Ağamalıoğlunun yalnız Demokratik Azərbaycan ədəbiyyatı nümayəndələrinin – 1946-cı ildə Cənubi Azərbaycanda Milli Demokratik Hakimiyyətin devrilməsindən sonra təqib və zindanlardan, dar ağaclarından canını qurtararaq Vətənin şimalına pənah gətirmiş İsmayıl Cəfərpur, Balaş Azəroğlu, Söhrab Tahir, Mədinə Gülgün, Hökümə Bülluri və başqalarının 1946-1960-cı illərdə yaratdığı poema nümunələrinin təhlili ilə bağlı yazdığı "Demokratik Azərbaycan ədəbiyyatında poema janrı" adlı namizədlik dissertasiyası istisna olmaqla, Cənub Azəpbaycan ədəbiyyatı geniş və hərtərəfli tədqiqat predmeti kimi seçilməmişdi. Hətta ayrı-ayrı şairlərin həyatı və yaradıcılığı haqqında qələmə alınan ədəbi oçerklərdə belə tədqiqatçılar onların yaratdıqları poema nümunələrinin üstündən sükutla keçmiş, bəzən isə sadəcə, adlarını çəkməklə kifayətlənmişlər. Etiraf edək ki, akademik, xalq yazıçısı Mirzə İbrahimovun rəhbərliyi ilə 1976-cı ildə Nizami adına Ədəbiyyat İnstitutunun tərkibində "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin yaradılmasından sonra Cənub ədəbiyyatı sistemli şəkildə öyrənilməyə başlanmışdır.

Lakin qeyd etməyə bilmərik ki, haqqında müxtəlif münasibətlərlə yazılan "Heydərbabaya salam" (M.Şəhriyar), "Sazımın sözü" (B.Q.Səhənd), "İsanın son şamı" (K.M.Sönməz), "Üç tablo, yaxud Eşqinin idealı" (M.Eşqi), "Apardı sellər Saranı" (H.M.Savalan) kimi tədqiqat boyu adını çəkəcəyimiz bir neçə poema istisna olmaqla, XX əsr Cənubi Azərbaycan şairlərinin poema yaradıcılığı zamanımıza qədər sistemli şəkildə öyrənilməmiş, ayrıca tədqiqat obyekti kimi seçilməmişdir. Düşünürük ki, XX əsr Cənubi Azərbyacan ədəbiyyatında poemanın

---

[1] İbrahimov M. Ümid və kədər poeziyası // "Azərbaycan" jurnalı, 1988, № 4, s.134.

[2] XX əsr Azərbaycan ədəbiyyatı məsələləri (Məqalələr toplusu). II kitab. Bakı: Elm, 2008, s.168-179; 179-193; 201-213; 213-219; 219-227.

bir janr kimi sistemli şəkildə öyrənilməsi, əslində mədəniyyət və ədəbiyyatımızın mühüm bir mərhələsinə aydınlıq gətirmək baxımından böyük əhəmiyyətə malikdir. Etiraf etmək lazımdır ki, XX əsrin 60-cı illərindən başlayaraq Cənub ədəbiyyatının tədqiqi ilə məşğul olan ədəbiyyatşünas alimlərimizin ayrı-ayrı şair və yazıçıların bədii irsinə müraciət etməsi, eyni zamanda gənc tədqiqatçıların da onların təcrübəsinə əsaslanaraq ədəbiyyatın müxtəlif aspektlərinin araşdırılmasına meyl göstərməsi və bu meyllər nəticəsində araya-ərsəyə gələn yeni tədqiqat əsərləri bu sahədəki mövcud boşluqların aradan qaldırılmasına doğru yönəldilmişdir. Dissertasiyanın yazılması məhz bu zərurətdən doğmuşdur.

**Mövzunun işlənmə dərəcəsi.** Şimali Azərbaycan ədəbiyyatşünaslığında Arazın o tayında - Cənubi Azərbaycanda yaranan böyük ədəbiyyat və bu ədəbiyyatın aparıcı qolu olan poema janrı ilə bağlı tədqiqatlar, qeyd etdiyimiz kimi, ayrı-ayrı poema nümunələri – "Heydərbabaya salam" (M.Şəhriyar), "Sazımın sözü" (B.Q.Səhənd), "İsanın son şamı" (K.M.Sönməz), "Üç tablo, yaxud Eşqinin idealı" (M.Eşqi), "Apardı sellər Saranı" (H.M.Savalan) haqqında yazılan çox az sayda məqalə ilə məhdudlaşmış, poema janrı ayrıca bir tədqiqat mövzusu kimi seçilərək araşdırılmamış, uzun illər diqqətdən kənarda qalmışdır. Bunun başlıca səbəbi, ilk növbədə 1920-ci ildə ADR – Azərbaycan Demokratik Cümhuriyyətinin XI Qızıl ordu tərəfindən işğal edilməsi və Şimali Azərbaycanda sosializmin qurulmasından sonra SSRİ ilə İran arasındakı sərhəd rejiminin ciddiləşməsi, "Gülüstan" (1813) və "Türkmənçay" (1828) müqavilələri ilə parçalanmış bir məmləkətin – Azərbaycanın Cənubu ilə Şimalı arasında gediş-gəlişin çətinləşməsi və illər keçdikcə sərhədlərin tamamilə keçilməz olması idi.

Cənubi Azərbaycan ədəbiyyatında ustad M.Şəhriyarın "Heydərbabaya salam" poemasının meydana çıxmasından sonra böyük bir canlanma yaranmasına, şairlər tərəfindən əsərə yeni-yeni nəzirələr, ədəbiyyatşünas və tənqidçilərin isə tədqiqat, təhlil xarakterli yazılar, resenziya və məqalələr yazmasına, ciddi bir ədəbi hərəkat başlamasına baxmayaraq,Şimali Azərbaycan ədəbiyyatında bu məsələnin üzərindən sükutla keçilmişdir. Cənubda Milli Hökumətin devrilməsi ilə tarixin səhifəsinə qanla yazılmış 1946-cı ildən sonra keçən 15-20 ildə yalnız 1958-ci ildə prof. Həmid Məmmədzadənin "Ustad Şəhriyar" adlı məqaləsi ilə bu məsələ yenidən gündəmə gəlməyə başladı. 1960-cı illərdə isə intensiv xarakter aldı və həmin dövrdən etibarən yazarların diqqəti Cənub ədəbiyyatına və böyük Məhəmmədhüseyn Şəhriyara yönəldi. Amma yenə də Cənubi Azərbaycanda poema janrı ilə bağlı xüsusi araşdırmaların aparılması arxa plana keçirildi.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi XX əsr Cənubi Azərbaycan ədəbiyyatında poema janrının təşəkkül və inkişaf mərhələlərini sistemli araşdıraraq, mövzu dairəsini və ideya-məzmun xüsusiyyətlərini üzə çıxarmaq, bədii sənətkarlıq keyfiyyətlərini çağdaş nəzəri-estetik meyarlarla qiymətləndirməkdən ibarətdir. Poema müəlliflərinin klassik ədəbi irsimizin ənənələrindən bəhrələnməklə bu janrın XX əsrin ictimai-siyasi, ədəbi-mədəni

şəraitinə uyğun inkişaf etdirmələrinin səbəblərini elmi cəhətdən əsaslandırmaq, eləcə də bu əsərlərin ədəbiyyat tariximizdəki yerini obyektiv müəyyənləşdirmək də dissertasiyanın məqsədinə daxildir. Bunun üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Cənubi Azərbaycan ədəbiyyatında poemaların təşəkkül tarixi və inkişaf mərhələlərini digər tarixi qaynaqlar kontekstində tədqiqata cəlb etməklə spesifik xüsusiyyətlərini üzə çıxarmaq;
- Poema janrının tədqiq tarixini araşdırmaq, janrla bağlı Azərbaycan ədəbiyyatşünaslığında mövcud olan elmi-nəzəri bilgiləri sistemləşdirmək;
- XX əsr Cənubi Azərbaycan ədəbiyyatında poemaların əlyazma və nəşr nüsxələrini araşdırmaqla bəzi filoloji-tekstoloji aspektlərə aydınlıq gətirmək;
- Poema janrının yeni yaradıcılıq axtarışları, mövzu və ideya-estetik baxımdan yeni keyfiyyətlərini üzə çıxarmaq;
- Cənubi Azərbaycan ədəbiyyatında Şəhriyar mərhələsinin, həmçinin mühacirlik taleyi yaşamağa məcbur olmuş şairlərin qələmə aldığı poema nümunələrinin ictimai-ədəbi və xəlqi keyfiyyətlərini elmi-nəzəri cəhətdən aydınlaşdırmaq;
- Cənubi Azərbaycan şairlərinin poema yaradıcılığının başlıca ideya-məzmun istiqamətlərini müəyyənləşdirmək və bədii özəlliklərini incələmək;
- Şifahi xalq ədəbiyyatı, Yaxın Şərq, o cümlədən Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin Cənubi Azərbaycan şairlərinin poema yaradıcılığına təsirini öyrənmək, Cənub şairlərinin "Heydərbabaya salam"a yazdığı yeni nəzirələri tədqiqatın kontekstində təhlil etmək:
- nəzəri əsaslarını incələmək;
- mövzu dairəsini müəyyənləşdirmək;
- mərhələlər və mövzular üzrə poemaların təsnifatını aparmaq;
- ənənəvi mövzuların davamı ilə yanaşı, onlara yeni yanaşma tərzi, mövzu və sənətkarlıq axtarışlarını tarixiliklə müasirliyin vəhdətində təhlil etmək;
- Cənubi Azərbaycan şairlərinin poema yaradıcılığında modernizmin təzahürü məsələlərini aydınlaşdırmaq;
- indiyəqədərki tədqiqatlardan kənarda qalmış, az öyrənilmiş, yaxud heç öyrənilməmiş - əlyazma şəklində olan poema nümunələrini tədqiqata cəlb etmək və sənətkarlıq məsələlərini incələmək.

**Tədqiqatın obyekti və predmeti**. XX əsr ümumazərbaycan ədəbiyyatında yaradılan poemalar araşdırmanın əsas obyektini, Cənubi Azərbaycan ədəbiyyatında meydana çıxan poemaların qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun tədqiqi və təhlili isə onun predmetini təşkil edir. Eyni zamanda dünya ədəbiyyatşünaslığında, xüsusilə də Türkiyə, Rusiya və İranda poema janrının təşəkkülü və inkişaf mərhələləri ilə bağlı müxtəlif vaxtlarda nəşr olunmuş kitab, məqalə və resenziyalar da araşdırmaya cəlb edilmişdir.

Bu dissertasiyada "Ümumazərbaycan ədəbiyyatı" dedikdə Şimali və Cənubi Azərbaycanda Azərbaycan türkcəsində qələmə alınan əsərlərlə yanaşı, Güneydəkitürk əsilli şairlərin fars dilində yazdıqları əsərlər də nəzərdə tutulur.

**Dissertasiyanın elmi yeniliyi**.Mövzunun ilk dəfə sistemli şəkildə işlənməsi dissertasiyanın elmi yeniliyini şərtləndirən başlıca məqamdır.

Cənubi Azərbaycan ədəbiyyatında müstəqil janr kimi böyük tarixi inkişaf yolu keçmiş və bu gün də inkişaf edən, yeni-yeni nümunələri yaranan poema janrının formalaşması və inkişaf mərhələləri milli ədəbiyyatşünaslığımızda ilk dəfə bu dissertasiyadageniş, sistemli və müqayisəli şəkildə araşdırılır. Bu janrın folklor qaynaqları, folklordan bəhrələnməyin forma və üsulları, sənətkar fərqliliyinin özgürlüyü dərindən öyrənilmiş, problemə həm də nəzəri aspektdə aydınlıq gətirilmişdir. Poema janrının klassik ənənələrdən bəhrələnməsilə yanaşı, yeni yaradıcılıq axtarışları, mövzu və ideya-estetik baxımdan da dövrə uyğun qazandığı yeni keyfiyyətlər üzə çıxarılmış, Cənubi Azərbaycan ədəbiyyatında Şəhriyar mərhələsinin, həmçinin mühacirlik taleyi yaşamağa məcbur olmuş şairlərin qələmə aldığı poema nümunələrinin ictimai-ədəbi və xəlqi keyfiyyətləri, mübarizə ruhlu, tarixi yaddaş tutumlu cəhətləri elmi-nəzəri cəhətdən aydınlaşdırılmışdır. Bu qənaət sərgilənmişdir ki, canlı danışıq dilinə söykənərək orijinal deyim tərzi, Azərbaycan poeziyasının çoxəsrlik tarixində zəngin ədəbi-bədii irs yaradan ustad Şəhriyar yaradıcılığının müasir elmi-ədəbi meyarlar mövqeyindən araşdırılması və təbliği günün tələbidir. Ənənəvi mövzuların davamı ilə yanaşı, onlara yeni yanaşma tərzi, mövzu və sənətkarlıq axtarışları tarixiliklə müasirliyin vəhdəti prizmasında təhlil edilmişdir. Bütün bunlarla yanaşı, janrın tədqiqi tarixi araşdırılmış, bu yolda əldə edilən uğurlar və problemlər müəyyənləşdirilmişdir. Bu nəticəyə gəlinmişdir ki, Cənubi Azərbaycanda milli istiqlaliyyət uğrunda uzun illər boyunca aparılan qutsal mübarizə, xalqlar arasında nifaq toxumu səpən mənfur qüvvələri ifşa edən, sülh və bərabərliyi, qardaşlığı təbliğ edən, Cənubi və Şimali Azərbaycanda mövcud olan ictimai-siyasi quruluşların vətəndaşın həyat tərzinə təsirinin müqayisəsindən yaranan fərqlilikləri, həmçinin ailə-məişət, məhəbbət, sənət və sənətkar problemləri kimi digər mühüm məsələləri təsvir və tərənnüm edən poemaların forma və məzmunu ətraflı elmi araşdırmalara tam əsas verir.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları**. Tədqiqat təsviri, tarixi-müqayisəli, müqayisəli-tipoloji metodlar əsasında işlənmişdir. İşin hazırlanmasında müasir ədəbiyyatşünaslığın elmi-nəzəri müddəaları, dünya və Azərbaycan ədəbiyyatşünaslığı sahəsində əldə olunmuş müvafiq nailiyyətlər nəzərə alınmış, əsas etibarilə Azərbaycan, rus, türk və qismən də Avropa filoloqlarının araşdırmalarına istinad edilmişdir.

**Tədqiqatın elmi-nəzəri və praktik əhəmiyyəti**. Dissertasiyada aparılan elmi araşdırma və ümumiləşdirmələr nəticəsində meydana çıxan elmi-nəzəri müddəalardan Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında və Cənubi Azərbaycan ədəbiyyatının öyrənilməsində istifadə oluna bilər. Dissertasiyadan o

taylı-bu taylı Azərbaycan ədəbiyyatı tarixi üzrə mühazirələrdə, ayrı-ayrı yazıçıların poema yaradıcılığı ilə bağlı xüsusi kurslarda və seminarlarda istifadə etmək də mümkündür.

Dissertasiya işinin materiallarından ali və orta ixtisas məktəbləri üçün hazırlanan dərslik və dərs vəsaitlərində və s. yararlanmaq olar.

Tədqiqat işindən gələcəkdə Azərbaycan ədəbiyyatında poema janrının daha dərin və ətraflı araşdırılmasında da bir elmi mənbə kimi istifadə edilə bilər.

**İşin aprobasiyası**. Dissertasiya AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsində hazırlanmışdır. Tədqiqatın əsas nəzəri müddəaları, başlıca elmi yenilikləri məqalə və tezislər şəklində müxtəlif elmi nəşrlərdə, beynəlxalq və Respublika elmi konfranslarının materiallarında, Azərbaycanda və xarici ölkələrdə çıxan elmi jurnallarda dərc edilmişdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri,tədqiq tarixi müəyyənləşdirilir, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, nəzəri və təcrübi əhəmiyyəti, aprobasiyası və tədqiqatın quruluşu haqda məlumat verilir.

Dissertasiyanın birinci fəsli **"Cənubi Azərbaycan ədəbiyyatında poema janrının təşəkkülü və tədqiqi problemləri"** adlanır və dörd yarımfəslə ayrılır.

"**Poema janrının təşəkkülü və inkişaf mərhələləri"** adlı 1-ci yarımfəsildə janrın yaranması və keçdiyi uzun bir inkişaf yoluna nəzər yetirilir. Göstərilir ki, bəşər övladının qəlbinin, hiss və həyəcanlarının tərcümanı olan söz tarixin müxtəlif inkişaf mərhələlərində zamanın tələblərinə uyğun olaraq ayrı-ayrı forma və məzmun daxilində inkişaf edərək həyatın inikası hesab edilən bədii ədəbiyyatı yaratmışdır. Zaman keçdikcə bədii ədəbiyyat hər birinin özünəməxsus, spesifik xüsusiyyətləri olan lirik, epik və dramatik növlərə ayrılmışdır. Beləliklə, böyük həyati əhəmiyyət kəsb edən ictimai-siyasi hadisələr və onların iştirakçılarının igidlikləri, şücaətləri ilə seçilən, elin məhəbbətini qazanan xalq qəhrəmanları haqqında yaranan və xorla oxunan mahnılar əsasında epos, belə demək mümkünsə, ilk dastan-poemalar formalaşmışdır. Ellinlərin Troyaya yürüşü (Yunan eposu), ulu xalqların hicrəti (Alman eposu), İspaniyanı istila edən və Fransa xalqının istilasını gözə alan ərəblərin dəf edilməsi (Fransa eposu) kimi ictimai-siyasi hadisələr öncə həmin xalqların yaşantılarını özündə əks etdirən mahnılara, daha sonralar isə eposlara–dastanlara çevrilmişdir. Şumerlərin – prototürklərin "Enmerkar və Aratta hökmdarı", "Uruk və Aratta", "Luqalbanda və Enmerkar", "Bilqamıs", qədim türklərin "Oğuz Kağan", "Əlp Ər Tonqa", "Ərgənəkon",

yunanların "İliada", "Odisseya", Azərbaycan türklərinin "Kitabi-Dədə Qorqud", almanların "Nibelunqlar haqqında mahnı", fransızların "Roland haqqında mahnı", ispanların "Sid haqqında poema", rusların "İqor polku haqqında dastan" və b. əsərlər məhz bu yolla yaranmış dastan nümunələri hesab olunur.

İlk poemaların yarandığı yer Yunanıstan hesab olunur və "qədim Yunanıstanda xalqın yaratdığı o epik əsərlərə poema adı verilirdi ki, orada əfsanəvi qəhrəmanların, yaxud Allahların həyatından və şücaətindən bəhs olunsun. Xalq fantaziyasının məhsulu olan bu surətlər qədim Yunanıstandakı xalq həyatının mühüm cəhətlərini əks etdirirdi"[1]. Lakin qeyd olunmalıdır ki, qədim türk eposunun yaşı heç də yunan eposunun tarixindən az deyil, bəlkə də ondan qədimdir. AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərovun yazdığı kimi: "Qədim türk eposu bir neçə minillik mifoloji-epik düşüncə axtarışlarının nəticəsi olaraq eramızdan əvvəl I minilliyin ortalarında formalaşmışdır və bir məsələ məlumdur ki, qədim türk eposunun əsasında protürk-türk mifologiyası dayanır"[2].

Həyatın həm epik, həm də lirik təsvirini verən, təhkiyə və tərənnümün qarşılıqlı vəhdəti əsasında formalaşan, "mənzum povest, süjetli mənzum hekayə kimi xarakterizə edilən poemanın"[3] bir janr olaraq təşəkkülü və inkişafı daha çox yazılı ədəbiyyatla bağlı olmuş, "tarixi şəraitin dəyişilməsi ilə əlaqədar olaraq, poemanın məzmun və forması da dəyişmiş"[4], eposdan sinkretik formaya malik olan bir xüsusi janra qədər tarixi inkişaf yolu keçmişdir.

Yunanca "poiema"– qurmaq, yaratmaq sözündən əmələ gələn və süjetli şeir növü olan"[5]poemada "həm epik təsvir, həm də təsvir olunan hadisələrə şairin lirik münasibəti, müdaxiləsi bir-birinə qaynayıb-qarışdığından belə əsərləri xüsusi bir janr təşkil edən lirik-epik növ adlandırmaq daha doğru olar"[6]. Avropada poema kimi xarakterizə olunan bu janr Şərq, eləcə də Azərbaycan ədəbiyyatında məsnəvi, Cənubda mənzumə və məsnəvi, Türkiyə ədəbiyyatında uzun şeir və mənzumə, 1950-ci illərdən sonra isə həm də poema olaraq adlandırılmışdır...

Ümumiyyətlə, ədəbiyyat nəzəriyyəsində bu janr, əsasən, belə təqdim olunur: "Poema - ədəbiyyatın lirik-epik nəqletmə formalarından biridir, şeirlə süjetli nəqletmədir. Şeirlə yazılmış povest və ya hekayədir. Şair poemada öz qəhrəmanının iştirak etdiyi sərgüzəşti və keçirdiyi həyəcanları da təsvir edir, eyni zamanda lirik əsərlərdə olduğu kimi, poemada da təsvir olunan həyat hadisələrinə qarşı şair öz münasibətini, sevinc və kədərini bildirir. Şair bu münasibətləri poemanın lirik ricətlərində hekayə ilə eyni emosional vüsətdə tərənnüm edir, bu da poemaya şairanə

---

[1] Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni: Ə.Mirəhmədov. Bakı: Maarif, 1978,s.139.
[2] Cəfərov N. Türk xalqları ədəbiyyatı. Bakı: Çaşıoğlu, 2006, s.5.
[3] Тимофеев Л.И. Основы теории литературы. Москва: Просвщение, 1976, с.370.
[4] Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni: Ə.Mirəhmədov. Bakı: Maarif, 1978,s.139.
[5] Тимофеев Л.И. Göstərilən əsəri, с.119.
[6] Qəribli İ. Məhəmməd Hadinin "İnsanların tarixi faciələri, yaxud əlvahi-intibah" poeması. Bakı: Elm, 2001, s.91.

ifadə tərzi verir. Beləliklə, poemada qəhrəmanlarla yanaşı, haqqında danışılanlarla bərabər lirik qəhrəman, şairin özü də iştirak edir"[1]. Poemaları bəzən "qəhrəmannamə" kimi də xarakterizə edirlər. Tarixdə müəyyən iz qoymuş şəxsiyyətlərin, yaxud cahanşümul hadisələrin bədii dillə təsvir və tərənnüm olunması üçün şairlər poema janrına daha çox müraciət etmiş, müxtəlif mövzularda orijinal poetik nümunələr yaratmışlar. Mənzum əsərlərin həcmcə ən böyüyü hesab edilən poemanın forma və məzmununa görə lirik-epik, epik-lirik, tarixi-dramatik növləri daha çox yayılmışdır.

Yazılı ədəbiyyat yarandıqdan sonra poema bir janr olaraq ən çox yayılmış lirik-epik təsvir növlərindən birinə çevrilmiş, Azərbaycanda, Şərqdə, eləcə də bütün dünya ədəbiyyatında aparıcı janrlardan biri səviyyəsinə yüksəlmiş, yuxarıda qeyd olunduğu kimi, məzmun və formasında mühüm dəyişikliklər baş vermişdir. Tarixin qədim dövrlərində meydana gəlmiş və öz mövcudluğunu günümüzədək qoruyub saxlaya bilmiş poemanın kapitalizm dövründə aparıcı janr mövqeyi zəifləmiş, bu ictimai-siyasi formasiyanın meydana gəlməsi ilə poema ədəbiyyatda əhəmiyyətli janr statusunu da bir qədər itirmiş, roman janrının mövqeyi möhkəmləndikcə bu janrın inkişafında müəyyən geriləmələr baş vermişdir. Lakin bütün enmə-qalxmalara baxmayaraq, hər dövr üçün səciyyəvi olan konkret tarixi cəhətləri, sosial problemləri, ən əsası, xalqın həyatını özündə parlaq şəkildə əks etdirən mükəmməl poema nümunələri yaranmış və bu proses bu gün də davam etməkdədir.

Qədim tarixə malik poema janrının inkişaf edib çiçəklənməsi, nisbətən arxa plana keçməsi, yaxud aparıcı janra çevrilməsi müəyyən ictimai-siyasi, tarixi proseslərlə sıx bağlı olmuşdur. Bir çox rus ədəbiyyatşünsları, o cümlədən N.A.Qulyayev poemanın yeni inkişaf mərhələsini kilsə ideologiyasının tədricən iflas edib burjua münasibətlərinin formalaşdığı dirçəliş dövrü ilə bağlayır və qeyd edir ki, "bu dönəmdə insana, onun mənəvi aləminə, hisslərinə olan maraq daha da artır. Bu zaman poema qəhrəmanları əvvəlki dövrlərdən fərqli olaraq sərkərdə, feodal-mütləqiyyət nümayəndələri yox, xalis insani keyfiyyətlərinə görə seçilən şəxsiyyətlər olurdular"[2].

Ədəbiyyatşünaslıqda belə bir fikir də mövcuddur ki, "poemanın çiçəklənməsi romantizm dövrü ilə bağlıdır; bu zaman poemada subyektiv-lirik cəhətlər ən parlaq ifadəsini tapmış və poemada lirik qəhrəman surəti yaranmışdır"[3]. Bu dövrdə poemalarda subyektiv lirik cəhətlər daha qabarıq təsvir edilmiş, tədricən qəhrəman surəti yaranmağa başlamış, lirik-epik təsvir, epik vüsət janrın əsas arqumentinə çevrilmişdir. Beləliklə, "romantik poemanın əsas predmeti feodal və burjuaziya quruluşuna qarşı, onun anti-humanist mahiyyətinə qarşı mübarizə aparan həqiqi

---

[1] Тимофеев Л.И.Göstərilən əsəri, c.119.
[2] Гуляев Н.А. Теория литературы. Москва: Высшая школа, 1977, c.123-124.
[3] Ədəbiyyatşünaslıq terminləri lüğəti..., Bakı: Maarif, 1978, s.139.

vətəndaş – insan seçilir. İnsanın bütün daxili-psixoloji keyfiyyətlərini, intim duyğularını açmaq janrın əsas tələbinə çevrilir”[1].

Gerçək həyatın lirik-epik tərənnümünün üstünlük təşkil etdiyi poemanı şeirdən fərqləndirən səciyyəvi xüsusiyyət həcm məsələsi, böyük və ya kiçik olması ilə yox, müəyyən süjet xəttinə, xarakterlər qalereyasına malik olması ilə ölçülür. Hər irihəcmli şeir hələ poema demək deyildir. Lirik şeirdən fərqli olaraq poema müəyyən bir süjetə malik olur. Əslində, klassik mənada poema möhtəşəm qəhrəmanın və nadir hadisənin genişliyi ilə dəbdəbəli şeir dilində təsvir və tərənnüm edilməsi deməkdir. Məhz buna görə də poemaya “qəhrəmannamə” də deyirlər.

Poemanın yaranma tarixi ilə bağlı Azərbaycan ədəbiyyatşünaslığında ciddi qənaətlər mövcuddur. Fil.ü.e.d. Elməddin Əlibəyzadə ilk poemanı yunanların deyil,şumerlərin–qədim əcdadlarımızın, prototürklərin yaratdığını iddia edir və o, fikrini isbatlamaq üçün dünyaca məşhur türkoloqların məsələ ilə ilgili arqumentlərinə istinad edir. Müəllif yazır: “Qədim Şumerdə dastan yaradıcılığı güclü olub. Müxtəlif qaynaq və mənbələrdə 9 dastan haqqında məlumat verilir. Bu dastanlarda bir çox bəşəri keyfiyyətlər bədii əksini tapıb, insan həyatı üçün zəruri problem və məsələlər qoyularaq həll olunur. “Enmerkar və Aratta hökmdarı”, ”Bilqamıs”, “Bilqamıs və Ağa”, “Uruk və Aratta”, “Luqalbanda və Enmerkar”, “Luqalbanda və Hurram” və s. Bunlar qəhrəmanlıq dastanları sayılır”[2]. Nəzərə alsaq ki, bu gün Cənubi Azərbaycan türkləri poemaya həm də dastan deyir və bəzi poema nümunələrini elə dastan olaraq təqdim edirlər və məşhur türkoloq Samuel Noah Kramer “Tarix Şumerdən başlanır” əsərində ”Enmerkar və Aratta hökmdarı” adlı Şumer dastanı haqqında “poema” deyə bəhs edir, o zaman E.Əlibəyzadənin fikrində şübhə doğuracaq məqam qalmır. S.N.Kramer yazır: “Qarşımdakı masa üzərində bir gil lövhə var. Təxminən 4000 il qabaq naməlum Şumer mirzəsi onun üzərində mixi işarələri cızmışdır. Lövhə 23x23 sm. ölçüdə dördbucaqlıdır, yəni adi makina kağızından da kiçik. Amma mirzə bu lövhəni on iki sütuna bölmüş və onun üzərində kiçicik işarələrlə qəhrəmanlıq poemasının 600-dən çox sətrini yerləşdirmişdir. Bu poemanı ”Enmerkar və Aratta hökmdarı” adlandırmaq olar”[3]. Bu yanaşma professor Qəzənfər Kazımovun Azərbaycan dilinin tarixilə bağlı ciddi araşdırmalarında da öz əksini tapır. Müəllif yazır: “Qədim şumerlərin yaratdığı doqquz qəhrəmanlıq dastanı məlumdur. Bu dastanların çoxu qədim Azərbaycan dövləti Aratta ilə bağlıdır. Dastan qəhrəmanlarının bir qismi–Enmerkar, Luqalbanda və Bilqamıs tarixi şəxsiyyətlərdir. “Bilqamıs” dastanı sonralar yaranmış türk dastanları ilə sıx bağlıdır. Dastanın qəhrəmanının adı da sonrakı türk dastanlarının bir sıra qəhrəmanlarının adları ilə eyni quruluşludur. Y.B.Yusifov

[1] Babazadə B. Ədəbiyyatda lirik növ (Dərs vəsaiti). Bakı: BDU nəşriyyatı, 2008, s.182.
[2] Əlibəyzadə E. Türk-Azərbaycan bədii düşüncəsinin ilkin qaynaqları. Bakı: Elm, 2007, s.72.
[3] Yenə orada. s.73.

Arattanın indiki Cənubi Azərbaycan ərazisində yerləşdiyini və tarixdə izi qalmış ilk Azərbaycan dövləti olduğunu sübut etmişdir”[1].

Fil.ü.e.d. İsmayıl Vəliyevin Şumer dastanlarının ondan sonra yaranmış bir sıra dastanlara güclü təsir göstərdiyi barədə qənaəti də düşündürücüdür: “Əski şumer dastan və nəğmələrində Azərbaycan folkloruna, nağıl və əfsanələrinə yaxın olan çoxlu süjet, fikir, bədii deyim, bənzətmə və s. vardır. “Bilqamıs dastanı”, “Kitabi-Dədə Qorqud” boyları və “Koroğlu” dastanı arasında mühüm əlaqə bağları mövcuddur”[2]. Gilqameş//Bilqamıs haqqında dastanı qısaca şərh edən və dastanın yaranma tarixi ilə bağlı ciddi fikirlər irəli sürən S.N.Kramer “Babil poemalarının qədimliyinə baxmayaraq Gilqameş haqqında hekayələr əsas etibarilə sami deyil, Şumer mənbələrinə aiddir”[3] hökmünü verir və dünya ədəbiyyatında ilk poemanı məhz şumerlərin–prototürklərin yaratdığını təsdiq edir.

I fəslin**“Folklordan qaynaqlanma və onun təzahür formaları”** adlı 2-ci yarımfəslində göstərilir ki, yaradıcılıq işi bütöv, ardıcıl və məntiqli bir prosesdir ki, bu, özünü həm folklor nümunələrində, həm də yazılı ədəbiyyatda göstərir. Bir qayda olaraq folklor yazılı ədəbiyyat üçün bir mənbə olduğu kimi, yazılı ədəbiyyatdan da folklora mövzuların inteqrasiyası təbii haldır.

Bu bölümdə Cənub şairlərinin yaradıcılığında “folklor ənənələrinin dünya-nın bədii qavrayış prinsipinə çevrilməsi prosesi qabardılır və gerçəkliklərin, baş verən hadisə və olayların qaçılmaz təsiri nəticəsində folklorizmin bədii təfəkkürün etnik xüsusiyyətlərinin ifadə üsullarından”biri statusu qazanması məsələsi araşdırılır. İstər Şimali, istərsə də Cənubi Azərbaycan ədəbiyyatında folklor xalqın fəlsəfə və psixologiya, sistem nəzəriyyəsi və modelləşdirməyə dair fikirlərini də ehtiva edir. Həmçinin bu qədim xalq ənənəsi dəqiq bir nöqteyi-nəzərlə bağlı şəkildə xalq ruhunun dərin elmi-metodoloji konsepsiyasını da müəyyənləşdirir.

M.Şəhriyarın “Heydərbabaya salam” və “Gecənin əfsanəsi”, B.Q.Səhəndin “Sazımın sözü”, K.M.Sönməzin “İsanın son şamı” və “İtin vəfası”, M.Biriyanın “Ərk qalası əfsanəsi”, Ə.Alovun “Ərk qalası”, H.M.Savalanın “Apardı sellər Sara-nı” və “Dinlə, Gəlin qayasın”, M.S.Şaminin “Qartal”, M.T.Zehtabinin “Şahin zəncirdə” poemalarında oxucu folklor motivlərini müəyyən etməkdə çətinlik çəkmir. “Sazımın sözü” poemalar silsiləsində el bayatıları, təkrarlamələrlə başlayan Səhənd “Araz” poemasında da mövzuya uyğun olan məşhur bir bayatını örnək gətirməklə fikrin, dərdin poetik ifadəsinə nail olur və bu nümunə əsərin ruhuna yüksək emosionallıq, həzin bir kövrəklik qatır:

---

[1] Kazımov Q. Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər). Bakı: Təhsil, 2003, s.154.

[2] Vəliyev İ. İnsan yaddaşı və ya bədii sözün gündoğanı (“Qədim Şərq ədəbiyyatı” kitabına müqəddimə. Bakı: “Azərbaycan Ensiklopediyası” NPB, 1999, s.13.

[3] Бабаджан Р. Лучше старая картина. // Литературное обозрение, 1974, №1, http://www. dissercat.c.14.

*Arazı ayırdılar,*
*Qum ilən doyurdular.*
*Mən səndən ayrılmazdım,*
*Zülümnən ayırdılar*[1].

Maraqlı faktdır ki, H.M.Savalan da "Apardı sellər Saranı" poemasını həmin xalq bayatısına uyğunlaşdıraraq qələmə aldığı bəndlə bitirir:

*Saramızı ayırdılar,*
*Bizi qəmlə doyurdular.*
*Hər yetəni soyurdular,*
*Apardı sellər Saranı*
*O qara telli balanı*[2].

Yazıçı və şairlər bütün dövrlərdə öz xalqının, eləcə də dünya xalqlarının folkloruna, şifahi xalq ədəbiyyatına möhkəm tellərlə bağlı olmuş, həmin qaynaqlardan yaradıcılıqla bəhrələnmişlər. Cənubi Azərbaycanda milli hökumətin qurulması, demokratik mətbuatın güclənməsi Əli Kəmali, Məhəmmədəli Fərzanə, Mirzəli Möcüz, ƏliTəbrizi, Məhəmmədbağır Niknam kimi dil, yurd, vətən təəssübkeşlərini də ana dilində yazıb-yaratmağa, zəngin klassik irsimizi araşdırmağa, folklor nümunələrini toplayıb xalqa çatdırmağa ruhlandırmışdır. Həmin dövrdə Azərbaycan şifahi xalq ədəbiyyatı, folklor məsələləri üzərində tədqiqatlar aparan Məhəmmədəli Fərzanə (1923-2006) "Azərbaycan milli dastanları" adı ilə silsilə məqalələr yazaraq nəşr etdirmiş, "Kitabi-Dədə Qorqud"un boylarına xüsusi diqqət və məhəbbətlə yanaşmışdır. Alim müsahibələrinin birində deyir: "Heç şübhəsiz, bu nümunələri oxuyanlar arasında sevinənlər də var idi, rahatlığı pozulanlar da. Artıq ədəbiyyatşünaslıqda "Dədə Qorqud" mübahisəli məsələyə çevrilmişdi. "Dədə Qorqud" boyları üzərində ədəbiyyatşünaslıqda mübahisələrin davam etdiyi günlərin birində sinəsi sözlü-söhbətli anama "Buğac boyu"nu oxudum və dedim ki, sözlərə diqqətlə qulaq ver, anlaşılmaz sözlər varsa, söylə. Anam axıradək dinləyərək cavab verdi: "Oğlum, burda anlaşılmaz nə var ki, boy da bizimdir, soy da bizim, söz də bizimdir, qan da bizim"[3].

Bulud Qaraçorlu Səhənd (1926-1979) "Kitabi-Dədə Qorqud" boylarından böyük ustalıqla istifadə edərək dədə-babalarımızın, nənələrimizin hikmət dünyasından, qədim əsatirlərimizdən, əcdadlarımızın həyat problemlərindən, çətinliklərindən bəhs edir, haqq və nahaqqı, xeyir və şəri, bir-birilə ziddiyyət təşkil edən bu məfhumları qarşılaşdırır. Şair insan və onun iç dünyasının sirlərini əsərdəki obrazların dili ilə açıqlayır, ilahi qanunlar, tale yazısı və qəzavü-qədər

---

[1] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, III c., Bakı: Elm, 1988, 552 s., s.282.
[2] Məcidzadə Həsən (Savalan). Apardı sellər Saranı. Tehran: Əxtər, 1359 (1980), s.20.
[3] Şükürova (Fuad) E. İlk müəllimim anam olub. "Respublika" qəz., Bakı, 1999, 27 noyabr.

məsələlərini önə çəkir. Dünyanın, bütün yaranışın, gözlə görünən hər zərrənin belə özbaşına yaranmadığını, bütün bunların mahiyyətində ilahi, fövqəl bir qüvvənin durduğunu əsaslandırmağa çalışır. Folklor təfəkkürlü bədii ümumiləşmənin ən tipik nümunəsi olan bu əsərdə ziddiyyətli hadisələri, təzadlı obrazları qarşılaşdıran şairin əsas məqsədi ulu Yaradanın haqq nurunun onun xəlq elədiyi insanların sevgisi və şəfqəti üzərində təcəlla etdiyini, qəhrəmanının ata, ana sevgisinin də əslində İlahiyə–Yaradana sevgi olduğunu bir daha anlatmaqdır. Dövrünün əsl söz, sənət ustadı olan B.Q.Səhənd mənəviyyatın, müqəddəs, ülvi duyğuların hər şeydən dəyərli olduğunu önə çəkir. Məhəmmədhüseyn Şəhriyarın (1905-1988) yaradıcılığında folklor mövzusu, folklor motivləri və poetikasından bəhrələnmə nümunələri daha intensivdir. "Heydərbabaya salam" poemasının ifadə tərzində, şairin təhkiyəsində müdrik bir ağsaqqal sözü, düşüncəsi var. Xalq ruhunun zənginliyi, incəliyi və təbiiliyi ilə rövnəqləndirilən bu mənzumə oxucularda dərin emosiya yaradır, duyan kəsin daxili dünyası təlatümə gəlir, duyğular seli kükrəyir. Bu, şairin poetik yaradıcılığında daha çox folklor nümunələrinin mühüm yer tutması, onun xalqın bədii təfəkkür məhsullarından nağıl, dastan, əfsanə, rəvayət detallarından, zərb-məsəl və atalar sözlərindən, mifik obraz və əsatirlərdən bəhrələnməsi ilə də əlaqədardır.

M.S.Şami "Qartal", M.T.Zehtabi "Şahin zəncirdə", H.Tərlan "Şahin və simurq" poemalarında folklordan qaynaqlanmaqla ədəbiyyata, şeir sənətinə yeni keyfiyyət dəyişiklikləri, milli ruh gətirmişlər. Çünki folklor xalq ruhunun, milli koloritin, xalq psixologiyasının, xalqın dini, mifoloji görüşlərinin və dilinin əks-sədası, əslində səsidir.

"Şahin zəncirdə" poemasında qarğanın 300 il yaşaması haqqında bu gün də mövcud olan əfsanəyə istinadən M.T.Zehtabi bir sıra mətləblərə eyham vurur və bu təlmihlər fikirlərini üstüörtülü şəkildə ifadə etmək, senzuradan yayınmaq üçün əslində vasitə rolunu oynayır. Şair Prometey haqqında qədim əfsanəyə də işarə edir. Qafqaz dağında çarmıxa çəkilən Prometeyin timsalında Vətəndən didərgin salınmış soydaşlarını, hər bir inqilabdan sonra dar ağaclarından asılan, zindanlara atılan azadlıq fədailərini görür...

Haşım Tərlanın "Şahin və Simurq" poemasında isə Şahin azadlığı əlindən alınaraq Qaf dağının zirvəsində ayaqlarından zəncirlənmiş Simurq quşunu azad etməsinin müqabilində onu öz ağasının yanına ərməğan aparmaq istəyir. Lakin azadlığı dünyanın hər şeyindən–hətta qızıl qəfəsdən, ən dadlı yeməklərdən də üstün sayan Simurq onun təklifinə boyun əymir. Boyunduruqda və hər cür naz-nemətin içində yaşamaqdansa, Qafın zirvəsində azad şəkildə ölməyi üstün tutduğunu bildirir[1].

Cənub şairlərinin nağıl, rəvayət, dastan motivləri, folklorik deyim tərzləri, bayatı, sayaçı sözlər, atalar sözləri, zərb-məsəllərdən və s. yüksək sənətkarlıqla

[1] Cənubi Azərbaycan ədəbiyyatı tarixi (XX əsr). 2 clddə, II c., Bakı: Qanun, 2013, s.497-512.

faydalandığıədəbi faktdır. Onlar bəzən əfsanə, yaxud rəvayətlə əlaqədar obrazlara, həmçinin obrazlarla bağlı təhkiyələrə bədii idealından, məqsədindən asılı olaraq müxtəlif yöndən yanaşır, əfsanənin bu və ya digər xüsusiyyətinə, daşıdığı mənaya işıq salırlar. "Harut və Zöhrə, Harut və Marut, Yusif və Züleyxa, Süleyman və Bilqeyis, Mahmud və Ayaz, Musanın əsası, Şəqqul-qəmər, Nuh peyğəmbərin qarğışı, Kəlilə və Dimnə, Veys və Ramin, Bəhramın şir əlindən tac alması, Prometeyin od oğurlaması, İsa Peyğəmbərin son şamı və nəfəsi ilə ölü diriltməsi, Sara və Xançoban, Nuhun gəmisi, Dirilik suyu, Xıdır İlyas-Xızır Peyğəmbər, Simurq quşunun fəndi, Əzrayılın can bəxş etməsi, Divin canı, Göyçək Fatma və s. obraz və süjetlər bu silsilədəndir"[1]. Ustad Şəhriyar, B.Q.Səhənd, M.T.Zehtabi, K.M.Sönməz, H.M.Savalan, H.Tərlan, M.Ş.Yalqız, H.Cəfəri vəşairlər poemalarında bu əfsanə, rəvayət və əsatirlərlə bağlı obraz və hadisələrə toxunurlar. Çox vaxt da bu əsaslanma, istinad yerinə düşür; təbiiliyi, təravəti ilə qarşıya qoyulmuş məqsədin, amalın açılmasına xidmət edir. Şəhriyarın "Səhəndim" poemasında olduğu kimi... ""Səhəndim" eserinde şairin folklor ürünlerinden yaratıcılıkla yararlanması haline daha sık rastlanır "[2].

Azəryar Danişvərin (1971) "Ey-vay, ana!" poemasının adı belə M.Şəhriyarın "Ey-vay, anam!" poemasını xatırladır. Şairin "Gecənin əfsanəsi" poemasının məzmunundan, zəngin obrazlar silsiləsindən ustalıqla bəhrələnən A.Danişvərin "Ey-vay, ana!" əsərində əsas fərqli cəhət odur ki, ana ilə övlad arasındakıdoğal sevginin onun ölümündən sonra da yaşadığını, Günəşin isə yerin, bütün kainatın anası kimi obrazlaşdırılmasıdır.

Azərbaycan xalqının problemlərlə üzləşməsi, milli haqq və hüquqlardan məhrum edilməsi, ana dilinin yasaqlanması və dili bağlı qalan uşaqların orta məktəbin ilk siniflərindən başlayaraq yaşadıqları mənəvi sıxıntı, təhqir və aşağılanmaya məruz qalması XX əsr Cənub yazarlarının yaratdığı bir sıra əsərlərin baş mövzusuna çevrilmişdir. Evdə türkcə dil açan uşağın məktəbdə fars dilində danışmağa və təhsil almağa məcbur edilməsi gerçəyini özü də yaşayan Azəryarın bu nisgil "Bağışlama məni!", "Eşidirəm səni!", "Vətən pülüşü"poemalarını yazmasına səbəb olmuşdur.

Firudin bəy Köçərli xalqın, millətin və hər bir şəxsin varoluşunun səbəbini, xoşbəxtliyini onun ana dili ilə bağlayaraq yazırdı: "Hər bir millətin ruhani həyat və səadəti bağlıdır onun ana dilinə. Necə ki, dili azadə dillərdə caridir, o millət baqi qalacaqdır. Bir millət nə qədər zillət və üsrətə düşsə də, nə qədər xar və zəlil olub ixtiyarını itirsə də, nə qədər aciz, zəif və məğlub olsa da, fövt olmaz, itib batmaz, beşərti ki, onun ana dili əlindən alınmaya, o dilə cəlb olunmaya, onun hürriyyət və

[1] Şükürova (Fuad) E. Söz sərrafı Şəhriyar (Monoqrafiya). Bakı: Avrasiya Beynəlxalq Mətbuat fondu, 2010, s. 210.

[2] Şükürova (Fuad) E. Muhammet Huseyin Şehriyar (Yaşamı, ortamı, bedii irsi). İstanbul: Peon Atlantic, 2014, s.288.

istiqlaliyyətinə mümaniət göstərilməyə və əliuzunluq olunmaya”[1]. Hər bir xalqın ana dilini qoruyub gələcək nəsillərə ötürən ən mötəbər mənbə isə məhz onun folklorudur.

Şifahi xalq yaradıcılığının ən çox yayılan, lakonik, lakin dərin məna qatına malik forması olan bayatıları ulu xalqımızın zülm və əsarətə qarşı üsyan səsi, könüllərin həsrətə dalmış təməli kimi dəyərləndirən Bəhruz Dövlətabadi Çayoğlunun (1948) yaradıcılığında folklor ənənələri, bayatı və atalar sözləri xüsusi önəm kəsb edir. Şair irihəcmli əsərlərində, poemalarında da bayatı və atalar sözlərindən geniş şəkildə istifadə etmişdir.

Şairin atalar sözlərindən zərgər dəqiqliyi ilə istifadə etməsi də mütərəqqi ideyalı yaradıcılığı üçün başlıca zəmin yaradır. ”Ac adamın gözləri də ac olar”, “Cızığından çıxan kəs dəli olar”, “Eşşəyinə nal vurmamış yük çatma”, “Elinə kim gülsə, evinə gülər”, “Arvadı darda sınarlar, kişini varda”, “Az yeyənin azarı da az olar”, “Tək əldən səs çıxmaz”, “Kişi tüpürdüyün yalamaz” kimi folklordan gəlmə deyimlər, şübhəsiz ki, onun poeziyasına, xüsusən, “Sazım mənlə danışır”, “Xatirələr dünyası” və “Azadlıq quşu” poemalarına xüsusi bir ovqat, milli çalar gətirir.

Göründüyü kimi, şifahi xalq yaradıcılığına sıx bağlı olan Cənub şairlərinin yaradıcılığı folklordan seçmələr və atalar sözləri ilə zəngindir. Şəhriyarın əsərlərində “Dostla mürüvvət etməli, düşmən ilə keçinməli”, “Pis bəşərin qaydasıdır, yaxşını tapsa dolaşa”, “Yer ki, bərk olur, öküz öküzdən inciyir”, “İp qırılmaz, can çıxmaz”, “Düz yerdə bizim ulaq gedə bilmir, şumda şıllaq atır”, “Xatəm (üzük-E.Ş.) çıxıbdır Süleymanın əlindən”, “Badımcan çoxu bazılarda küçüklər”, “Dədəm mənə kor deyib, hər gələni vur deyib”, “Yoldaş, məni qurd apardı - (oyun adıdır, E.Ş.) oynardıq”, “Çox Bakıdan fanar gəlir, oxurduq” (qədim mahnıdır)”, “Farslar deyir: “Cuyəndə yabəndə”di (Axtaran tapar), Savalanın poemalarında “Hər gecənin gündüzü var”, “Yaxşıdan yaxşılıq törər”, Ə.N.Oxtayın “Tülkü kitabı” poemasında isə “Gələr bir gün çörək heç dişləməzlər, Və dünyada çalışmaz, işləməzlər”, “Yatma tülkü kölgəsində, qoy yesin aslan səni”, “Köpək qursağı sarı yağ götürməz” və s. kimi atalar sözləri, zərb-məsəllər onların açmaq istədiyi mətləblərin dəqiq və konkret ifadəsində əvəzolunmaz rol oynayır. Əlbəttə, M.Ə.Harayın da istinad etdiyi “Kor tutduğun bıraxmayır” deyiminin mənası hər kəsə məlumdur, ancaq “Eynalıdan qızıl umub, Sərmayanı verən bada!”[2] - atalar sözünün kəsb etdiyi məna oxucuya bir qədər qaranlıq qalır və bu məqamda izah tələb olunur: Eynalı dağı Təbrizin yaxınlığında yamacları qırmızıya çalan bir dağdır və burada qızıl olduğu söylənir. Ancaq daha çox torpağa qarışmış olan qiymətli metalı xammaldan ayırmaq gəliri çıxarını qarşılamaz durumdadır. Buna görə də xalq arasında “boşuna

---

[1] Köçərli F. Azərbaycan ədəbiyyatı. 2 cilddə, II c., Bakı: Elm, 1981, s.297.

[2] Kafkasyalı A. İran Türklerinin Edebiyyat Antolojisi. VI ciltte, VI c., Erzurum: Atatürk Üniversitesi Basımevi, 2002, s.209.

əmək, boşuna qeyrət" anlamında bir deyim yaranmış və "Eynalıdan qızıl ummaq" kimi yaşarılıq qazanmışdır. Soydaşlarını dillərdə əzbər olan, məsəllərə dönən ata və babaların sözlərini dərk etməyə səsləyən B.Q.Səhənd özü də "Sazımın sözü" poemalar silsiləsində müdrik fikirlərdən ibarət dəyərli bir boxça yaratmışdır. "Aydan arı, sudan duru" ata sözünü "Aydan-aydın, gündən-duru" kimi orijinal bir formada işlətmiş, "Eşqin tərsi, avandı olmaz" kəlamını isə "Məhəbbətin "gər bu başı, gər o başı" deyə-deyə; Müxənnəsi "Murad" bilib, Erkəklərə könül vermiş" bəndində çox böyük ustalıqla bədii məqsədinin ifadəsinə vasitə–açar seçmiş və uğurlu nəticə almışdır. Şairin bəzən bir bəndin dörd misrasında da atalar sözü işlədərək intəhasız fikir yelkəninin açılmasına çalışdığının da şahidi oluruq:

*"Kəl döyüşünə kəl dözər"– demişlər,*
*"Döyüş asan gəlir gendən baxana".*
*"İpin nə çəkdiyin doğanaq bilər",*
*"Aşdan soruş, ocaq neylər qazana"*[1].

Odun, ocağın folklorumuzda, xalqın inanc dünyasında, mifologiyasında, tarix və ədəbiyyatımızda özəl yeri vardır və hər iki məfhumla bağlı özünəməxsus yozumlar mövcuddur. Əski çağlarda bəri odla ocağın xalqımızın və bəşəriyyətin həyatındakı əvəzsiz xilaskarlıq rolu odu, ocağı qutsallaşdırmış, and yerinə çevirmiş və "Od haqqı", "Ocağa and olsun", "Ocağın sönməsin" kimi dua və alqışların, "Ocağın kor qalsın", "Ocağın yanmasın, boş qalsın" kimi qarğışların yaranmasına səbəb olmuşdur. Od və ocağın mistik ədəbiyyatımızda obrazını yaradan yazarlar kimi M.T.Zehtabi də "Şahin zəncirdə" poemasında odun, ocağın xalqın həyatındakı əvəzsiz xilaskarlıq roluna, eləcə də Azərbaycanın odlar yurdu kimi tanınmasına işarə edərək təlmih yaradır və obrazın yeni variantını təqdim edir.

Cənubi Azərbaycan ədəbiyyatında Şəhriyardan başlayaraq XX əsrin sonlarına doğru ədəbi hərəkatda təmsil olunan əksər şairlər də, göründüyü kimi, öz yaradıcılıqlarında folklordan, xalq ənənəsindən, şifahi xalq ədəbiyyatı xəzinəsindən yüksək sənətkarlıqla bəhrələnmişlər. Bu da ənənəvi ruhda əsər yazmağın parametrik xüsusiyyətlərinə birmənalı yanaşmaq səbəbi ilə daha çox əlaqədardır və bu yanaşma onların fikirlərinin təsir gücünü daha da artırmaqla yanaşı, əsərlərinə forma əlvanlığı, ən başlıcası, milli ruh da gətirmişdir. Bir sıra çağdaş poema nümunələrinin Azərbaycan şifahi xalq ədəbiyyatının mif, əsatir, dastan, nağıl, əfsanə süjetlərinə söykəndiyi, təhkiyə tərzindəki folklor qatı, ümumiyyətlə, folklor poetikasının poemaya nüfuzu açıqlanmış, bu qənaətə gəlinmişdir ki, poema bütün hallarda xalq təfəkkürünə söykənir. Milli folklor ənənələri tədqiqatın mərkəzinə gətirilir.

[1] Səhənd B.Q. Dədəmin kitabı. Tərtib edən, ön sözün və şərhlərin müəllifi Fikrət Süleymanoğlu. Bakı: Nurlar, 2015, s.413.

I fəslin "**Klassik poeziyanın poema yaradıcılığına təsiri**" adlı 3-cüyarımfəslində Cənub şairlərininsöz sənəti korifeylərinin yaradıcılığından yüksək sənətkarlıqla bəhrələnməsi faktları açıqlanır və bu məkanda yaranmış böyük ədəbiyyatın poema qolunun klassik ədəbiyyatın bünövrəsi üzərində inkişaf etdiyi konkret nümunələr əsasında təsdiqlənir. Göstərilir ki, elmin və incəsənətin bütün sahələrində olduğu kimi, bədii ədəbiyyatda da sələflərdən öyrənmək, keçmişə nəzər salaraq müasirliklə vəhdət yaratmaq, tarixə istinad önəmlidir. Həmçinin xalqlar arasında ədəbi əlaqələr, bədii təsir məsələsi bütövlükdə ədəbiyyatın ən vacib elementlərindəndir.

Ustad Şəhriyarın da bədii irsinə klassik ədəbiyyatın güclü təsiri olmuşdur. Klassik ənənələrdən bol-bol qaynaqlanan şair bütün yaradıcılığı boyu Nizami, Xaqani, Füzuli, Rumi, Hafiz, Saib Təbrizi, Nəsimi, Xətai, Sabir, Möcüz kimi mütəfəkkirlərin poetik irsindən bəhrələnmişdir ki, onun bir çox əsərlərində həmin ruh aydın duyulmaqdadır. Bu da şairin ənənəvi ruhda əsər yazmağın parametrik xüsusiyyətlərinə birmənalı yanaşması səbəbi ilə daha çox əlaqədardır. Xaqani və Nizami ədəbi məktəbinin davamçısı olan və ustadlarından bəhrələnən Şəhriyar "Gecənin əfsanəsi" poemasının "Təxti-Cəmşid" hissəsini məhz "Mədain xərabələri" və "İsgəndərnamə" əsərlərinin təsiri ilə qələmə almışdır:

*Hər xaqan yadigarı bir müdhiş xərabədir,*
*Mədain xütbəsini car çəkmirmi Xaqani?–*

deyən kamil sənətkar İran hökmdarları Dara//Dariyuşun şahlıq etdiyi sönməz növraqlı Təxti-Cəmşidin ərəb istilasına, Çingiz xanın, İsgəndər Zülqərney-nin hücumlarına məruz qalaraq dağıdılmasını, sirlər qəbristanlığına çevrilməsini, Dara ilə son döyüşdə isə məğlub edilərək yandırılmasını, bu ölməz sənət əsərinin alovlar içində yanıb kül olmasını parlaq boyalarla təsvir edir[1]. Lakin bütün poema boyunca öz didaktik şair mövqeyini, mütəffəkkir simasını, obrazını qoruyub saxlayır və son qənaətini–bütün Yer üzündə baş verən xəyanət və cinayətlərin, fəlakət və rəzalətlərin, müharibə və qırğınların əsas səbəbkarının nadanlıq, cəhalət, tamah və acgözlük olduğunu bir ismarış kimi bütün bəşəriyyətə ünvanlayır. "Təxti-Cəmşid"də o, sələfi mütəfəkkir şair Nizami Gəncəvinin yaratdığı obrazları da özünəməxsus tərzdə, yeni biçimdə, yeni ictimai məzmun müstəvisində canlandırır.

Dahi Nizami "İsgəndərnamə" poemasında ilk dəfə yaratdığı İsgəndər obrazının simasında ədalətli şah, insanların xoş rifahı, azadlıq və səadəti uğrunda mübarizə aparan haqsevər bir qəhrəman surətini təqdim etmək istəmişdir. Mütəfəkkir şairin əsas məqsədi, o dövr üçün utopiya olsa da, ədalətli, müdrik hökmdar obrazı yaratmaq və cəmiyyətlərə ondan nümunə götürməyi tövsiyə etmək idi. Nizaminin İsgəndər obrazı ilə Şəhriyarın yaratdığı şah obrazı bir-birindən

---

[1] Şükürova (Fuad) E. Söz sərrafı Şəhryar (Monoqrafiya). Bakı: Avrasiya Beynəlxalq Mətbuat fondu, 2010, s.229.

fərqlənir. Sələfinin humanist, haqsevər, ədalətli bir şah – şəxsiyyət kimi qələmə aldığı qəhrəmanını bütün müharibələrə, qəsbkarlara nifrət edən, hər cür fitnəkarlığı, soyğunçuluğu pisləyən, bir insanın ölümünü bütövlükdə cahanın ölümünə bərabər tutan, dünyada ancaq sülh və əmin-amanlığın, mədəniyyətin qalibiyyətini görmək istəyən Şəhriyar isə İsgəndəri Əhrimən, Yer üzünü fitnə-fəsad yuvasına, savaş, dava-dalaş meydanına çevirən şər qüvvə kimi təqdim etmişdir. Bütün bunlarla bərabər, insanları, cəmiyyətləri Xaqani Mədain xərabələrindən, Şəhriyar isə odlar, alovlar içində yandırılmış "Təxti-Cəmşid"in viranəliklərindən ibrət almağa, nəticə çıxarmağa çağırmışdır.

Təkcə ustad Şəhriyarı deyil, Cənub şairlərinin əksəriyyətini klassik irslə bağlayan ümumi cəhətlər çoxdur.

Nizami təfəkkürünün işığı B.Q.Səhənd yaradıcılığına da aydın şəkildə sirayət etmişdir. O, poemalarında S.Vurğun, M.Ə.Sabir sözünün, şeirinin də bədii yaradıcılığına təsirindən, böyük şairin əsərlərindən bəhrələnməsindən qürur hissilə bəhs açmışdır.

Bəhruz Dövlətabadi Çayoğlunun (1948) "Azadlıq quşu" poemasında isə folklor naxışı ilə bərabər, Nizami və Füzuli ruhu da aşkar hiss olunur. "Şəmə pərvanə, gülə bülbül" nə qədər gərəkdirsə, "insana da azadlıq" o qədər gərəkdir inamında olan B.D.Çayoğlu Nizaminin "Xosrov və Şirin" poemasının baş qəhrəmanlarından birinin–Fərhadın eşqi yolunda dağçapması motivinə işarə edərək bu məqamı Cənubi Azərbaycan xalqının azadlıq istəyinə, özgürlük, bağımsızlıq diləyinə bağlamışdır.

M.T.Zehtabi "Şahin zəncirdə" poemasında Şərqin əbədi şölələnən zəka məşəli sandığı Nizaminin "İsgəndərnamə" poemasının baş qəhrəmanı İsgəndərin dirilik suyu axtarması motivinə söykənərək dünyaca məşhur fatehin dirilik suyunu axtarmaq üçün zülmətə getməsini, lakin bütün bu səylərin boşuna, həyatın əbədi, insanların isə gəldi-gedər olduğunu göstərmişdir.

Böyük Səməd Vurğun İranda irticaçı qüvvələrin 1930-cu illərdə Cənubi Azərbaycanda türkcə yazılan kitabları yandırmalarından hiddətlənərək "Yandırılan kitablar" adlı bir şeir yazmış (20 yanvar 1947-ci il) və bu hökmü imzalayanları da, hökmün icraçılarını da cəllad adlandırmış, hökmfərmaları qınamışdı. Bizim qənaətimizə görə, Mənuçöhr Əzizi Haray (1936) "Yandırılan sazlar" poemasını 30-40 il sonra məhz bu şeirdən təsirlənərək qələmə almışdır. Güney türklərinin milli haqq və hüquqlarının savunulması başlıca yer tutan "Yandırılan sazlar" və "Tarçı Şulan" poemalarında şair bu məsələləri qabardır. Şahlıq dönəmində İranda yasaq və basqılarla qarşı-qarşıya olan Türk milli musiqi alətləri saz və tar İran İslam İnqilabından sonra qəti olaraq qadağan olunmuşdur. 1366//1987-ci ildə yeni İran hökuməti saz və tarların toplanaraq yandırılmasına qərar verir. Bu dəhşətli hadisənin şahidi olmuş M.Ə.Haray "Yandırılan sazlar" adlı bu məşhur poemasını yazmışdır.

Mirməhəmməd Musuinin "Göydərə" poeması forma və üslubuna görə Şəhriyarın "Səhəndim"ini, əhatə etdiyi məzmun və məna dairəsinə görə isə "Heydərbabaya salam"ı xatırladır. Lakin süjet və struktur quruluşundakı fərq bu poemaları bir-birindən ayırır:

*Göydərə qızları ipdən corablar toxuyarlar,*
*İşvəli sevgililər– yar gələcəkdir – oxuyarlar*[1].

Fars dilində yazıb-yaradan türkəsilli böyük Azərbaycan şairləri İrəc Mirzə, Arif Qəzvini, eləcə də çağdaş fars ədəbiyyatının görkəmli nümayəndəsi, "Əfsanə şairi" kimi tanınmış Nima Yuşic ana mövzusunda poemalar yazmışlar. Həm də N.Yuşic İ.Mirzə və M.S.Şaminin də əsas götürdüyü "Ana ürəyi" əfsanəsinin motivləri üzərində yazdığı "Əfsanə" poeması ilə oxucularının könlünü fəth etmişdir. Çağdaş dövrün ünlü şairi Mahmud Sadıqpur Şami isə məhz İrəc Mirzənin "Ana"sından təsirlənərək "Ana ürəyi" adlı poema qələmə almışdır. Bu ədəbi təsiri təsdiqləyən M.S.Şami ana mövzusunda bir yox, iki - "Ana ürəyi" və "Necə şair yarandım mən?" poemalarını yazmış, qucağında gül-çiçək ətrinə batdığı, şirin nağıl, dastan, əfsanə və rəvayətlərini dinləyərkən addım-addım uçub ulduzlara qonduğu, qoynunda bəxtiyar olduğu, həm də folklor nümunələrində əsrlərdən bəri öz sabit mövqeyini qoruyub saxlayan "Məhəbbət ilahəsi"nə sevgisini bildirmiş, ona olan övladlıq borcunu yerinə yetirməyə çalışmışdır.

Cənub şairləri klassiklərdən, korifey söz ustadlarımızın yaradıcılığından elə ustalıqla bəhrələnirlər ki, nəticədə bütün parametrlərilə poema janrının tələblərinə cavab verən yeni səpkili orijinal əsərlər araya-ərsəyə gətirirlər. Etkilənmə qaynaqlarını açıq etiraf edən Cənub şairlərinin bu əsərlərdə hətta bəhrələndikləri şairlərlə, sənətkarlarla iftixar duyduqları da aydın müşahidə olunur. İstedadlı şair olmaqla yanaşı, dəyərli elmi araşdırmaları ilə oxucuların rəğbətini qazanmış prof. Hüseyn Düzgünün dünyanın heç bir nemətinə aldanmayaraq yalnız söz sənətinə xidmət edən ölməz Səməd Behrəngiyə həsr etdiyi eyniadlı poemadan gətirdiyimiz örnəklə onun böyük fəxarətlə müraciət etdiyi obyektləri-sənətkarları göstərəcək və fikrimizi yekunlaşdırmağa çalışacağıq:

*Qazi Burhanəddin nə oldu, ey yar!*
*Qanla qoruduğu hanı o diyar?*
*Hanı o döyüşkən Hürufilərim?*
*Namərdə satılır müqəddəs yerim.*
*Hanı Bəktaşilər, hanı Goranlar,*
*Hanı o qəməli yurda qurbanlar?*
*Hanı qanlı izli o Qızıl Başlar?*
*İllərin ardından, mən Vurğunların,*
*Sənə gətirirəm dərin salamın*[2].

---

[1] Vətən nəğməsi (Şeirlər toplusu). Təbriz: 1358 (1979), s.133.
[2] http://www.duzgun.ir/turk

H.Düzgünün “Səməd Behrəngi” poemasındakı “Mənim babam yazan “Qara məcmuə”, gərək ki, yol aça mədrəsələrə” misraları ilə demək istədiyi mətləb aydındır və fikrimizcə, şərhə ehtiyac yoxdur.

Beləliklə, tədqiq olunan dövrdə–XX əsrdə Cənubi Azərbaycanda yaranan poemalara klassik ədəbiyyatın təsiri ancaq fəlsəfi düşüncə və sözdən ustalıqla istifadə etmək meyarı ilə şərtlənməmiş, ictimai həyata baxışda milli özünüdərk, azadlıq ideyası ilə xəlqiliyin sintezində yeni, orijinal ədəbi-bədii keyfiyyət qazanmışdır.

I fəslin **“Poema janrının tədqiqi tarixindən”** adlı 4-cü yarımfəslində ədəbiyyat nəzəriyyəçilərinin fikirlərinə istinad etməklə, poema janrının tədqiq tarixi izlənir. Vurğulanır ki, tədqiqatçı alimlərin bəziləri Cənubi Azərbaycanda göstərilən zaman çərçivəsində yarananços az sayda poemalara münasibət bildirsələr də, XX əsr Cənub ədəbiyyatının aparıcı janrlarından biri olan poema janrı indiyədək sistemli şəkildə tədqiq edilməmiş, xüsusi araşdırma mövzusu olmamışdır.

Görünür, elə bu səbəbdən akademik Mirzə İbrahimov Azərbaycan ədəbiyyatı tarixini bütöv şəkildə, vəhdətdə öyrənməyə daha çox önəm vermiş, Cənubi Azərbaycan və burada cərəyan edən ictimai-siyasi hadisələr, daim inkişafda olan ədəbiyyatın, çağdaş ədəbi prosesin vəziyyəti onu yazıçı, ədəbiyyatşünas-alim, həm də publisist kimi daim maraqlandırmış, bu yönlü bir sıra oçerklərini, Cənubi Azərbaycan və İranda nəşr olunan mətbuatla bağlı icmallarını məhz bu məqsədlə qələmə almışdır. O, Cənubda gedən ictimai-siyasi və ədəbi prosesi yaxından izləmiş, G.Səbahi, R.Dəqiq, C.Heyət, S.Cavid, K.M.Sönməz və digər istedadlı qələm sahibləri ilə məktublaşaraq ədəbi mükalimələr aparmış, burada yaranan şeiriyyəti “Ümid və kədər poeziyası” adlandırmışdı. M.İbrahimov Mərziyə xanım Üskülü, Əlirza Nabdil Oxtay, Səməd Behrəngi kimi şəhid yazarların qutsal əməllərini, mərdliklərini yüksək dəyərləndirmiş, M.Şəhriyar, B.Q.Səhənd, H.M.Savalan, H.Sahir, H.Tərlan, R.Dəqiq, Y.Şeyda və b. poeziyasını araşdırmış, onların romantik vüsətini təqdir etmişdir. Akademik M.İbrahimov B.Q.Səhəndin “Kitabi-Dədə Qorqud” dastanındakı eyni boyu nəzmə çəkərək qələmə aldığı “Dəli Domrul” poemasını “Şəhriyarın “Heydərbabaya salam”ından sonra Cənubdan bizə gələn ən qiymətli yadigar və qardaşlıq töhfəsi” adlandırmışdır.

Doktor Cavad Heyət çağdaş şəhriyarşünaslıq elminə töhfə olan və “uzun zamanlar bizim kimliyimizi göstərən ən kiçik qərinəni silmək, aradan aparmaq və mümkün deyilsə, təbir-təfsir yolu ilə ən zəif rəvayətə dayanaraq gün kimi aydın dəlilləri heçə saymaq və unutdurmaq istəyən[1] farslara türk mədəniyyətini tanıtmaq məqsədi ilə məhz fars dilində “Hünər-e Şəhriyar (Şəhriyarın sənəti)” adlı silsilə məqalələr yazmış və dönə-dönə vurğulamışdır ki, türk şair və ədibləri, fars həmkarları ilə birgə əsrlərlə özlərini klassik farscanın tərəqqisinə və təkmilləşməsinə elə geniş həsr etmişdilər ki, az qala öz dil və mədəniyyətlərini unutmuşdular.

[1] Heyət C. Azərbaycan ədəbiyyatına bir baxış. I kitab, Bakı: Yazıçı, 1993, s.78.

Yalnız xalq şeiri bütün bu fəlakətlərə üstün gələ bilirdi. Yenidən öz kimliyinə dönüb və mədəni irsinə dəyər verməyə başlayan türk aydınları da az deyildi. Onlardan biri də Məhəmmədhüseyn Şəhriyar idi. Əsrin ən böyük şairlərindən biri, ənənəvi fars şeirinin ustadı M.Şəhriyar öz ədəbi istiqamətini dəyişərək doğma Azərbaycan türkcəsində "Heydərbabaya salam" kimi çox qiymətli bir əsər yaratdı[1].

Qeyd edək ki, XX əsr Cənubi Azərbaycan ədəbiyyatında poema janrının öyrənilməsi və tədqiqi məsələləri daha çox ustad Şəhriyar və onun sənət möcüzəsi –"Heydərbabaya salam" poeması ilə bağlıdır. İrəc Mirzə, Məliküş-şüəra Bahar, Əbdüləli Karəng, Mehdi Rövşənzəmir, Əli Zəhri, Nüsrətulla Fəthi Atəşbak, Seyid Məhəmmədhüseyn Mübəyyin, Yəhya Şeyda, Böyük Nik Əndiş kimi onlarla ədəbiyyat xiridarı şairin həyatı, poeziyası və "Heydərbabaya salam" poeması haqqında yüksək fikirlər söyləmiş, araşdırmalar aparmışlar.

Ruqiyyə Qəmbərqızı B.Q.Səhəndin "Sazımın sözü" kitabına yazdığı "Bulud Qaraçurlu Səhənd və onun poeziyası" adlı ön sözdə, Fil.ü.e.d. Sabir Əmirov (Nəbioğlu) "Səhənd" monoqrafiyasında "Sazımın sözü" poemalar silsiləsi haqqında qiymətli fikirlər söyləmiş, əsəri geniş şəkildə təhlil edərək bu qənaətə gəlmişlər ki, B.Q.Səhəndi ""Dədə Qorqud" dastanlarının sorağına sövq edən qüvvə vətəninin, doğma ana yurdunun məsud sabahına aparan yolun sədaqətli, yorulmaz fədaisi olmaq idealından nəşət etmişdi"[2].

G.Səbahi, C.Heyət, Ə.Sərrafi, qüdrətli nasir Q.Saidi və başqaları da B.Q.Səhəndin bu əsərindən bəhs etmişlər ki, yeri gəldikcə biz onlara münasibət bildirmişik. Məhəmmədəli Fərzanənin (Qovsi) görkəmli yazarlar, həmçinin Azərbaycan dili və tarixi, xüsusilə Şəhriyarın "Heydərbabaya salam" və Səhəndin "Dədəmin kitabı" poemaları, həmçinin "Ana dilimiz və varlığımız haqqında xatirələr" silsiləsindən qələmə aldığı məqalələri "Varlıq" məcmuəsində dərc edilmiş, yeni nəsil yazarların milli düşüncəyə, milli mentalitetə sadiqlik ruhunda köklənməsində və bu mövzuda yeni poema nümunələrinin yaranmasında əvəzsiz rol oynamışdır. "Sazımın sözü" kitabının ilk çapına yazdığı "Cənubi Azərbaycanın milli–mübariz şairi" adlı müqəddimədə isə M.Fərzanə Səhəndin yaradıcılıq konsepsiyasının özəyində duran həqiqət axtarışına xüsusi önəm vermişdir. Fərzanəyə görə, Səhənd "dastanlara qoşduğu başlanışlarda həyat fəlsəfəsini, insanın özünü tapdığı gündən "həqiqət adlanan o gözəl pəri"yə çatmaq uğrunda çırpıntılarını dərindən mənimsəyir. Hər şeydən əvvəl, o, varlığı, insan həyatını, durğun və sönük surətdə yox, bəlkə, daimi dəyişilməkdə və inkişafda görür[3].

B.Q.Səhənd yaradıcılığının zirvəsi olan "Sazımın sözü" poemalar silsiləsini son illərdə şairin həyat və yaradıcılığını ciddi şəkildə araşdıran Fikrət Süleymanoğlu "Səhəndin şah əsəri" adlı mükəmməl ön söz və şərhlər yazaraq

[1] Nitqi H. Hünər-i Şəhriyar (Şəhriyarın sənəti). "Varlıq" jurnalı, Hordad-Tir 1363 (1984), sayı 61, s.3-15.
[2] Əmirov (Nəbioğlu). S.Səhənd (Monoqrafiya). Elmi redaktoru: V.Sultanlı. Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası, Ana dili fondu, Bakı: Nurlan, 2006, s.56.
[3] Səhənd B.Q. Dədəmin kitabı. Stokholm: Durna och Tribun. 2001, s.7.

“Dədəmin kitabı” adı ilə nəşr etdirmiş, əsər haqqında ədəbiyyatşünasların qənaətlərinə də yeri gəldikcə istinad edərək obyektiv fikirlərini sərgiləmişdir[1].

Şair və tədqiqatçı Hümmət Şahbazi “İkinci ərməğan” əsərində Səhənd poeziyasında “Başqa birisinin varlığını dərk etmək, ya da duyğusal epiklik” məsələlərini işıqlandırır, şairin fəlsəfi düşüncələrini açıqlayır[2].

Görkəmli yazıçı və dilçi alim Nasır Mənzuri “Ağız lövhələri” seriyasından “Şəhriyarın şeirlərində çaxnayış“ adlı iki məqalə yazmış, şairin həm fars, həm də türkcə, təbii ki, poemaları da daxil olmaqla, şeirlərindəki çaxnayışlığın-coşğunluğun modelini işləmiş və tədqiqatlarını 2010-cu ildə nəşr etdirmişdir.

Nazim Rizvanov “Məhəmmədhüseyn Şəhriyar yaradıcılığında vətənpərvərlik”, Qulamhüseyn Beqdeli “Məhəmmədhüseyn Şəhriyar”, Hökümə Bülluri “Məhəmmədhüseyn Şəhriyar”, Elman Quliyev “Şəhriyar poeziyası və milli təkamül” kimi tədqiqatlarında, Almaz Məmmədova (Əliqızı) isə “Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri” adlı doktorluq dissertasiyasında və “Cənubi Azərbaycan ədəbiyyatı: Ədəbi qeydlər” kitabında XX əsr Cənubi Azərbaycan ədəbiyyatının parlaq siması olan Şəhriyarın və b. həyatı, bədii irsi, eləcə də poema yaradıcılığı barədə dəyərli fikir və mülahizələr yürütmüşlər.

Fil.ü.e.d. prof. Rafiq Yusifoğlu (Əliyev) isə “Azərbaycan poeması: axtarışlar və perspektivlər” və “XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri” adlı fundamental monoqrafiyalarında ümumiyyətlə, poema janrının keçdiyi inkişaf yoluna işıq salır, janrın tipologiyasını müəyyənləşdirir, quzeyli şairlərin poema yaradıcılığında mənəvi-əxlaqi problemlərin başlıca məsələ olduğunu xarakterizə edir, poemalarda ictimai hadisələrin bədii fonda sistemləşdiyini bildirir və Azərbaycanın quzeyində janrın tədqiq tarixini hərtərəfli araşdırır. R.Yusifoğlunun bu dəyərli və sistemli araşdırmaları janrın tədqiqi və imkanlarının müəyyənləşdirilməsi baxımından ən sanballı örnəklərdəndir.

Alim-şair Xəlil Rza Ulutürk “Müharibədən sonrakı Azərbaycan sovet ədəbiyyatında poema janrı (1945-1950)” mövzusunda yazdığı namizədlik dissertasiyasında Azərbaycan ədəbiyyatında bu janrın inkişafı üçün təməl daşı olan mənbələri göstərmiş, Xaqani Şirvani, Nizami Gəncəvi, Arif Ərdəbili, Füzuli və Saib Təbrizinın yazdığı poemaların zəngin yaradıcılıq xəzinəsi olduğundan bəhs açmış, “Abbas və Gülgəz”, “Şəhriyar” və “Qaçaq Nəbi” dastanlarının rolunu xüsusi qeyd etmişdir. Tədqiqatda “XX əsrin Quzey Azərbaycan poeziyasında ilk poema nümunələrinin meydana gəlməsi və inkişafı araşdırılmış, Cəfər Cabbarlının “Qız qalası”, Hacı Kərim Sanılının “Köç”, Hüseyn Cavidin “Azər” poemaları, xüsusən Mikayıl Müşfiqin “Qaya”, “Səhər”, “Sındırılan saz” əsərləri əsaslı surətdə təhlil predmetinə çevrilmiş, janrın inkişafında onların rolu obyektiv qiymətləndirilmişdir.

---

[1]Səhənd B.Q. Dədəmin kitabı. Tərtib edən, ön sözün və şərhlərin müəllifi Fikrət Süleymanoğlu. Bakı: Nurlar, 2015, s.3-16.

[2]Şahbazi H. نقدشعرمعاصرآذربایجان // Nəğd-e şere moasere Azərbaycan (Çağdaş Azərbaycan şerinin tənqidi) . Təbriz: Əxtər, 1383 (2004), s.182-187.

F.ü.f.d. Yolçu Piriyevin "XIX əsr Azərbaycan ədəbiyyatında poema janrı" adlı tədqiqatında da bu janrın inkişaf tarixi, təşəkkül mərhələləri araşdırılır və XIX əsr poema yaradıcılığı diqqət mərkəzində saxlanılır.

Uzun illər Cənub ədəbiyyatını böyük əzmlə araşdıran və bir sıra Cənub yazarlarını Quzeydə ədəbi ictimaiyyətə ilk dəfə təqdim edən fil.ü.e.d., prof. A.Ə.Məmmədova öz tədqiqatlarında Cənubi Azərbaycan ədəbiyyatının müxtəlif problemlərinə, ayrı-ayrı ədəbi simaların istər bütöv Azərbaycan, istərsə də Cənubi Azərbaycan ədəbiyyatının inkişafındakı roluna və tutduğu mövqeyə aydınlıq gətirir, məqalələrinin bir qismində ədəbiyyatın inkişafı fonunda Cənubda gedən ictimai-siyasi prosesləri izləyir. Cənub yazarlarının əsərlərindən nümunələr əsasında ədəbiyyatda sənətkarlığın mühüm amillərdən biri olduğunu qeyd edən fədakar tədqiqatçı göstərir ki, "sənətkarlıq məsələlərinin bədii konsepsiyasının düzgün təhlili bu meyarla bağlı novator düşüncələrin meydana çıxmasına zəmin yaradır"[1].

Qulamhüsüyn Beqdeli müasir Cənub ədəbiyyatının qüdrətli yaradıcılarından olan M.Şəhriyar haqqında yazdığı eyniadlı tədqiqat əsərində[2] şairin həyat və yaradıcılığının sənətkarlıq xüsusiyyətlərindən bəhs edir, "Heydərbabaya salam" və "Stalinqrad qəhrəmanları" poemalarının lakonik təhlilini verir.

Fil.ü.f.d. Vəfa Əliyev Cənubi Azərbaycanın görkəmli lirik-romantik şairi Həbib Sahirin həyat və yaradıcılığı haqqında yazdığı "Həbib Sahirin poetik yaradıcılığının inkişaf yolu" namizədlik dissertasiyasında, eləcə də "Hürriyyət fədaisi" adlı dəyərli monoqrafiyasında şairin yaradıcılığının təkamül mərhələlərini, bədii sənətkarlıq və poetika məsələlərini, poeziyasının məziyyətlərini, dil və üslub xüsusiyyətlərini geniş təhlil və tədqiq etmiş, Həbib Sahirin seçilmiş əsərləri əsasında "Məndən salam deyin gözəl Təbrizə" kitabının nəşrinə nail olmuşdur. V.Əliyev kitaba şairin bir çox şeirləri ilə yanaşı, "Poema"sını və "Nil çayı" poemasından parçaları da daxil etmişdir[3].

Elşən Böyükvəndin "Muğanın ədəbi mühiti və "Qanlı günəş" poeması barədə" yazısı da əsl dəyərləndirmə, Cənub ədəbiyyatının uğur və çatışmazlıqlarını göstərən mükəmməl, obyektiv bir təhlildir. Gənc şair "Qanlı günəş" poemasına yeni təfəkkürlə, modernizm nöqteyi-nəzərindən yanaşır və yazır: "Qanlı günəş" poemasının quruluşuna diqqət yetirdiyimiz zaman sayın Dr.Rza Bərəhani demişkən, zehni forma ilə zahiri formanın uzlaşmağına tanıq oluruq.

Q.Cəfəri tarixsəl, əski türk yazılı abidələrindən örnəklərlə qiyaslama müstəvisində yazdığı "Poema özəlliyi və poetika gözəlliyi" adlı məqaləsində orijinal bir müqayisə aparır. 20 il ərəb xilafətinə qarşı mərdliklə mübarizə aparan igid Babək haqqında bildikləri əsasında "Qanlı günəş" adlı poema yazan şairin də

---

[1]Əliqızı A. Cənubi Azərbaycan ədəbiyyatı məsələləri (Elmi redaktoru: C.Abdullayev). Bakı: Azərnəşr, 2007, s.68.
[2] Beqdeli Q. Məhəmmədhüseyn Şəhriyar. Bakı: Azərnəşr, 1966, 83 s.
[3] Əliyev V. Hürriyyət fədaisi. Bakı : Ozan, 2000, s.163-171.

sanki qəhrəmanı kimi qılıncın dili üzərində yeridiyini söyləyir. "Qanlı günəş" poemasını çağdaş divan poemaları sırasında kamil əsərlərdən biri kimi dəyərləndirən Qadir Cəfəri poemaçılığın ən yayğın problemindən ustalıqla yaxa qurtarmasını M.C.Hüseyninin əsas uğuru sayır. Düşünür ki, o, "öz poemasını ayrı-ayrı bölümlərdə yazmaqla yorucu və bezdirici misralardan yaxa qurtara bilmişdir. Poemaçılıq, əsasən, hekayəçilik elementlərini daşımaqla birbaşa mənzum təhkiyəçilik xarakteri qazanır. "Qanlı günəş" poemasında ən əsas məsələlərdən biri də Babəkin metaforlaşması məsələsidir. Poemanın sonuna yetəndə hər bir oxucu artıq Azərbaycanın tarixi şəxsiyyətlərini öz düşüncəsində formalaşdırır"[1].

Dissertasiyanın "**Poema janrının inkişafında yeni meyil və təmayüllər**" adlı II fəslində XX əsrin əvvəlləri, Rza şah istibdadı dövrü və II Dünya müharibəsi illərində (1900-1950) Cənub ədəbiyyatında yaranmış poemalartəhlil süzgəcindən keçirilmiş, Mirzadə Eşqi, Məhəmməd Hidəçi, Mir Mehdi Etimad, Mahmud Qənizadə, Hilal Nasiri və ustad Şəhriyarın bir sıra poemaları təhlil edilmişdir.

Qeyd edək ki, hər inqilabdan sonra Cənubi Azərbaycan türklərinin milli təfəkkürü, milli şüuru öz inkişafında yeni mərhələyə qədəm qoymuşdur. Obyektivlik naminə deyək ki, bu inqilablar xalqın həyatına münasibətin onun siyasi, mənəvi-mədəni fəaliyyətində inikas tapmasına, yəni "Cənubi Azərbaycan türklərinin milli şüurunun məzmununun subyektiv gerçəklikdən obyektiv reallığa çevrilməsinə şərait yaratmışdır"[2].

Rza şah istibdadı dövrü XX əsrin əvvəllərini, konkret olaraq 1925-1941-ci illəri əhatə edir. Bölmənin adında da bu dövrün xüsusi vurğulanması təsadüfi deyil. Belə ki, Rza şahdan sonra hakimiyyətə gələn onun oğlu Məhəmmədrza şah Pəhləvi atasından da kəskin və açıq şəkildə "Vahid İran milləti" nəzəriyyəsinə söykənən farslaşdırma siyasəti aparmağa başlamışdır. Hətta 1958-ci ildə Nazirlər kabinetinin iclasında Maarif nazirinə açıq mətnlə müraciət edərək bildirmişdi ki, elə edin ki, uşaq bağçalarında, məktəblərdə fars dilini icbari tətbiq etməklə qeyri farslar öz ana dillərini unutsunlar!

Müəyyən tarixi şəraitdə cəmiyyətin həyatında baş verən dəyişikliklərlə əlaqədar olaraq ədəbiyyatın ictimai mühitə münasibəti fəallaşır, gerçəkliyin dərki və realistcəsinə təhlili, onlara münasibət bildirmək yazıçı və şairlərdən hətta tələb edilir. Ədəbi dilin formalaşmasında ədəbiyyatın ictimai mühitə münasibəti mühüm rol oynayır. Cənubi Azərbaycan türklərinin ədəbi dilinin və anadilli mətbuatın inkişafında İkinci Dünya müharibəsi (1939-1945) başladıqdan sonra İrana müvəqqəti olaraq sovet qoşunlarının yeridilməsi və 1941-ci ildə Qızıl ordu hissələrinin Təbrizə daxil olması hadisəsinin də az əhəmiyyəti olmamışdır. Bu dövrdə Güney Azərbaycanda mətbuat yenidən dirçəlir, bir sıra yeni qəzet və jurnallar nəşrə başlayır. "Həmin hadisə nəticəsində Cənubi Azərbaycan Sovet

---

[1] http://edebiyyat.biz/az/view/4553/cavansir-yusifli-eli kerim haqqinda eskizler

[2] Əliqızı A. Cənubi Azərbaycan ədəbiyyatı məsələləri. Elmi redaktoru: C.Abdullayev. Bakı: Azərnəşr, 2007, s.184.

İttifaqının Şərqlə bağlı siyasi oyunları fonunda müvəqqəti olaraq öz milli mətbuatını, dilini inkişaf etdirməyə başlamışdı[1]. Əlbəttə, yazılı ədəbi dilin formalaşması prosesi də 1945-ci il sentyabr ayının 3-də yaradılan və 11 dekabr 1946-cı ilədək Cənubi Azərbaycanda güclü fəaliyyət göstərən Azərbaycan Demokrat Firqəsinin (ADF) demokratik hərəkata rəhbərlik etməsi və hakimiyyəti ələ alan Milli Hökumətin möhtəşəm fəaliyyəti ilə (12 dekabr 1945–12 dekabr 1946) mümkün olmuşdu. B.Çobanzadə qeyd edirdi ki, türk dilləri ailəsində ən mükəmməl qrammatikaya malik dil Azərbaycan dilidir, amma o bunu Şimali Azərbaycan haqqında söyləmişdir. Cənubda M.Fərzanənin Müasir Azərbaycan dili adlı 4 cildlik əsəri də Şimali Azərbaycanda çıxmış eyni adlı əsərlər (Orfoepiya, Orfoqrafiya, Morfologiya və Sintaksis) əsasında hazırlanmışdı. Təəssüf ki, bu əsərlər özünün tətbiq olunma obyektini bu günə kimi tapa bilməmişdir. Bunun üçün Azərbaycan dilində kütləvi icbari təhsil sistemi lazımdır. Təəssüf ki, İran dövlətinin Əsas Qanununda müvafiq maddənin olmasına baxmayaraq, bu gün də belə bir şərait yoxdur. Cənubi və Şimali Azərbaycanda ədəbi dil həmin vaxt, təxminən eyni şəkildə işlənmək imkanı əldə etmişdi. Bu illərdə fars dilində "Çelengər", "Məsləhət", "Yeni Şərq" kimi dövri nəşrlərin yayımlanması da Azərbaycan dilinin inkişafında müəyyən rol oynayırdı. ADF-in rəsmi orqanı olan "Azərbaycan" qəzetinin bu sahədəki xidmətləri isə daha böyükdür. Bunlardan əlavə, Təbrizdə "Fəryad", "Şahin", "Ədəbiyyat səhifəsi", "Vətən yolunda", "Əxtər-e şemal" (Şimal ulduzu), Ərdəbildə "Yumruq", Urmiyada "Qızıl əsgər" qəzetləri[2] də sosializm ideyalarının təbliğinə xidmət edirdi. Rus, Azərbaycan və fars dillərində nəşr edilən və sırf ordu qəzeti olan "Qızıl əsgər"insə məqsədi aydın idi və təbliğatçı bir orqan kimi aktiv fəaliyyət göstərirdi. Bununla belə, "Qızıl əsgər"in Azərbaycan variantı ədəbi dilimizin formalaşmasına birbaşa xidmət edir və inkişafına güclü təsir göstərirdi.

II fəslin **"XX əsrin I yarısında Cənubi Azərbaycan ədəbiyyatında yaranmışpoemalar"** adlı I yarımfəslindəXX əsrin əvvəllərində,1905-1911-ci illərdə İranda və Cənubi Azərbaycanda baş vermiş Məşrutə inqilabı dövründə Cənubi Azərbaycanda ilk dəfə ana dilində bir sıra qəzet və jurnallar, demokratik mətbuat orqanları dərc olunmağa başlanmışdır. Bu dövrdə buraxılan qəzet və jurnalların, demək olar ki, hamısı quruluşa qarşı çıxmış, xalqı inqilabi mübarizəyə səsləmiş, ölkənin və xalqın ümumi səadəti uğrunda mübarizə aparmışdır.

Tədqiq olunan mərhələdə bu qənatə gəlinir ki, Cənubda yaranmış poemalar çağdaş dünya ədəbiyyatı nümunələrinə heyrətamiz dərəcədə yaxın olan əsərlərdir və burada Şərq-Qərb düşüncə tərzinin vəhdəti ehtiva olunur. Çağdaş dövrdə sivilizasiyaların qarşılıqlı təsiri məsələsinə münasibət birmənalı xarakter daşımır.

---

[1] Xudiyev N. Güney Azərbaycan mətbuatına bir baxış. "Varlıq" jurnalı, 1383 (2004), №133, s.35.
[2] http://ethnoglobus.az/az/index.

Bu nəzəri incəlik Cənub-Şimal mədəni münasibətlərində nəzərə alınmalıdır. Çünki ümumən bütövlük yaradan Cənubi və Şimali Azərbaycan mədəniyyətləri arasında bədii-ictimai dialoqun vacibliyi ilə yanaşı, onların müəyyən spesifikliyinin və bu spesifikliyin içində özümləşən bəzi cəhətlərinin qarşılıqlı anlaşmaya çətinlik törədə biləcəyi ehtimalı da mövcuddur. Bu mövcudluq hər iki tərəfin ədəbiyyatı arasında mümkün və qeyri-mümkün baxış və kontekstlərin yeni aspektdə ifadə olunmasına stimul yaratmalıdır. Həmin tendensiya XX əsrin I yarısında yaranmış ədəbiyyatın, xüsusən poemaların əsas göstəricilərindən biridir.

1940-cı illər Cənub poeziyasında baş verən qlobal ictimai-siyasi hadisələr və mövzu baxımından ondan bəhrələnmək cəmiyyətdə aktiv ədəbi-bədii cərəyanların daha geniş şəkil almasına şərait yaradırdı. Qələmə sarılmış sənətkarlar o dövrün ictimai-bədii xarakterini müəyyənləşdirən mövzulara müraciət etməklə, inqilabi əhval-ruhiyyəyə bir növ təkan verirdilər. Cəmiyyət belə əsərlərin köməyilə ictimai mövqeyini təyin edə bilirdi. Bu isə sənət və sənətkarlığın yeni mərhələdə inkişafını göstərən məqamlardır. 1940-cı illər Cənub ədəbiyyatında sənətkarlığın əsas və ümdə şərti ictimai həyatın bütün sahələrini oxucunun gözləri qarşısında bədii libasa bürüyərək canlandırmaq idi. Bu cəhətin elmi-nəzəri əhəmiyyəti o dövr ədəbiyyatı üçün olduqca böyük idi.

Deməli, Quzey və Cənub ədəbiyyatında, xüsusilə poemalarda mədəniyyətlərin genetik arxetiplərinin tipologiyası yalnız oxşar amillərin mahiyyətinin şərh edilməsini deyil, həm də onların təşəkkülü mexanizminin müəyyənləşdirilməsini də şərtləndirmişdir. Məhz bu səbəbdən Cənubda yaranmış poemalarda mədəniyyət və mədəniyyətlərarararası yaxınlıq məsələləri özəl yer tutur. Bu kontekstdə Cənubi Azərbaycan ədəbiyyatında poema janrının üç əsas istiqamətini mühüm şərt kimi səciyyələndiririk:

1. Ədəbiyyatlar arasında mənəvi-genetik qohumluq–yaxınlıq prinsipi;
2. Bu ədəbiyyatlar arasında uyğunsuzluq amilinin tipikləşdirilməsi;
3. Münaqişə-ixtilaf həddinin səciyyəviliyinin son dərəcə xarakterik olması.

Hər üç halda ədəbiyyat ictimai ruha şəriklikdə israrlıdır və Cənub ədəbiyyatında da bu cəhət diqqət çəkir. İstər Cənub və Quzey Azərbaycan, istərsə də digər ölkələrin ədəbiyyatında onu yaradan sənətkarların yaşadığı dövrün, mühitin ağrı-acıları, ümumi ab-havası əks olunur. İctimai həyatın uğurları, nöqsanları, insanların psixologiyası, həyat tərzi və s. də yazarların yaradıcılığında geniş surətdə təcəssüm edilir. Biz insanın ağrı-acısının, iç dünyasının, onun gündəlik məişət qayğılarının, əhatə olunduğu ictimai mühitin və s. poemalarda daha qabarıq şəkildə əks edildiyini görürük.

II fəslin “**Cənubi Azərbaycan ədəbiyyatında Şəhriyar mərhələsi**”adlı 2-ci yarımfəslində1950-1979-cu illər arasında ərsəyə gələn poema nümunələri, əsasən də ustad şairin ədəbi mühiti, həyatı, yaradıcılığı və bədii irsinin ədəbi təsir dairəsindən bəhs etdiyim monoqrafiyamda “Heydərbabaya salam” poemasına yazılan nəzirələr sırasınnda adı keçməyən, sonradan əldə etdiyim və haqqında bəhs

etmədiyim poema nümunələritədqiqata cəlb edilir. Ustad şairin əsərlərinin ədəbi təsir dairəsi, İran və Azərbaycan, eləcə də ümumtürk ədəbiyyatında mövqeyi müəyyənləşdirilir.

Bu fəslin**"XX əsrin II yarısında Cənubi Azərbaycan ədəbiyyatında poema janrının inkişaf problemləri"**adlı 3-cü yarımfəslində isə, adından da göründüyü kimi, Cənub şairlərinin 1979-2000-ci illər arasında qələmə aldıqları poemalarından bəhs açılmışdır.

Həmin mərhələnin əsas ədəbi hadisəsi xalqın dili, milli ədəbiyyatı, incəsənəti, gələcək həyatı barədə fikir və düşüncələrinin yüksək səviyyədə ilk dəfə doğma ana dilində–Azərbaycan türkcəsində ifadə edilməsidir. Yəni, illərdən bəri dili, mədəniyyəti, tarixi keçmişi, milli hüquqları, bu günü və gələcəyi haqqında fikir və ideyalarını ana dilində ifadə etməkdən məhrum edilmiş Cənubi Azərbaycan xalqı həmin inqilabların qələbəsindən dərhal sonra, həmçinin inqilabi prosesin başlanma ərəfəsində və yaşandığı zamanda öz ana dilini müxtəlif qəzet, jurnal, toplu və kitablarda əks etdirməyə başladılar. Bu cəhətdən 1945-1946-cı illər "21 Azər nehzəti" (inqilabı) Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixində ən parlaq səhifədir.

Xalqın aydınları, vətənpərvər söz ustaları həmin illərdə milli ayrı-seçkiliyə, mövcud hakimiyyətin şovinist siyasətinə qarşı mübarizənin yeni mərhələsinə başladılar. Dahi Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığı buna bariz nümunədir. Əslində 50-ci illərdə bütün türk dünyasını ana dilində ən sadə sözlərlə heyrətləndirərək, zövqlərdə və həyata baxışlarda mədəni inqilab yaradan, türkdilli ədəbiyyatın inkişafında güclü təkan olan məşhur "Heydərbabaya salam" poeması, daha sonra "Azərbaycan" qəzəli zülm səltənətinə, İran monarxiyasına və onun havadarlarına ittihamnamə idi. Hər iki əsər yeni nəsil oxucu zövqünü formalaşdırdı, Cənub ədəbiyyatında təzə sosial-siyasi yüklü mövzu qalereyasının yaradılmasına çağırış etdi. Ədəbiyyatsevərlər H.Tərlan, H.R.Səhər, M.Üskülü, Saplaq, Ə.Alov, H.A.Barışmaz, Şəhrək, Ə.N.Oxtay, H.Sahir, K.M.Sönməz, İ.Səlahi, M.Q.Qaflantı, A.Bariz və sonrakı nəsil yazarlarından Ə.Miyanalı, Ə.Duman, Ə.Səlami, Ə.Daşqın, H.İldırım, E.Muğanlı, İ.Ülkər, H.Qaraçay, H.Şahbazi, Ə.Cavadpur, F.F.İpək, Adsız və b. əsərlərinə böyük sevgi göstərməyə başladılar. Bu illərdə Cənubi Azərbaycanda ziyalılar, söz ustaları milli mənlik şüurunun günün tələbi səviyyəsində formalaşması nəticəsində belə bir təsəvvürü möhkəmləndirməyə çalışırdılar ki, "İranda yaşayan azərbaycanlılar özünəməxsus, müstəqil və ayrıca bir millət olub türk xalqları qrupuna daxildirlər və hər bir azərbaycanlı həmin millətin bir fərdi olmaqla İran ölkəsinin vətəndaşı, Azərbaycan tarixi və mədəniyyətinin yaradıcısı, eyni zamanda İran tarixi və mədəniyyətinin də ən fəal

subyektidir. Buna görə də Cənubi Azərbaycan milləti İran daxilində azad və müstəqil yaşamaq haqqına malikdir[1].

Sağlam diplomatik məzmuna malik olan belə bir milli-siyasi oriyentiri ictimaiyyət arasında yaymaq Cənub ədəbiyyatında incə yolla siyasiləşməyə davam prosesinə müdriklik əlaməti, özünü qorumaq hüququ verirdi.

Müşahidələr göstərir ki, ana dili uğrunda mübarizə inqilabdan sonra da davam etmişdir. Mübarizələr, inqilabi hərəkatlar, xalqın milli azadlıqlar uğrunda çarpışmaları ədəbiyyatda, poeziyada ictimai-siyasi mövzuları ön plana çəkirdi. Bəhram Elçinin "İnqilab dastanı", H.M.Savalanın "Apardı sellər Saranı", Y.M.Əmininin "Aşıqlı karvan", B.Zəmaninin "Araz", M.Q.Qaflantının "Seçilmiş əsərləri", Ə.S.Alovun "Dumanlı günlər", H.Tərlanın "Alovlu şerlər", Ə.N.Oxtayın "İşıq" və s. kimi ictimai-siyasi mövzuları əhatələyən kitabları 1978-79-cu illərdə baş vermiş İran İslam İnqilabından sonra işıq üzü gördü. Bu kitablarda toplanmış əsərlərdə, eləcə də poemalarda xalqın adət-ənənələri, milli hökumət, inqilab dövrü, durğunluq illərinin ictimai-siyasi mənzərəsi poetik dillə təsvir edilir. Cənubun söz ustaları bütün dövrlərdə xalq həyatının tərcümanı, xalqın danışan dili olmaqla təsdiq etdilər ki, şairlik ən yüksək vətənpərvərlikdir. Xalqa xidmət həqiqət carçısı olmaq, insanları haqq və ədalətin doğru yoluna çıxarmaqdır. Bu yolda canından keçmək, ölüm və ya fəlakət də xoşdur. Onların canından keçmək, ölüm və fəlakətlə üzləşəcəklərini gözə alaraq sız-sıx müraciət etdiyi bir ictimai-siyasi mövzu da Urmu//Urmiya hadisələridir. Urmu gölü adlı təbiət möcüzəsinin artıq məhv olmaq–qurumaq üzrə olduğunu bütün dünyaya car çəkmək, əgər göl quruyarsa ətraf bölgələrin hamısının zərər görəcəyi ekoloji fəlakətin, duz fırtınasının qarşısını almaq üçün çağırışlar etmək Cənub şairlərinin prioritet məsələsidir.

Qoynunda Şeyx Səfiəddin, Mahmud Qənizadə, Cabbar bəy Bağcaban, Səid Səlmasi, Nimtac xanım, Mahmud Əşrəfzadə, Həbibüllah Ağazadə, Mahmud Sadıqpur Şami kimi neçə-neçə ünlü sənətkar yetirən, torpağının altı, üstü də qızıl tək qiymətli olan, qədim mədəniyyət beşiyi kimi dünyanın maddi-mədəniyyət irsi siyahısına düşən nadir bir şəhər məhv olmaq, bu şəhərin üzük qaşı–Urmu gölü isə buraya axan çayların üzərinə suvarma məqsədilə vurulan bəndlər, qazılan saysız-hesabsız quyular üzündən qurumaq üzrədir. Artıq milli dərdə çevrilmiş bu problem ədəbiyyatın baş mövzularından birinə çevrilməkdədir. Dədə Katib təxəllüsü ilə məşhur olan Əbdürrəhman Təyyar Quluncunun (1925-2008) "Urmiyə" poemasında da Urmu//Urmiyanın dünəni və bu günkü durumu–ölüm-dirim mübarizəsi nəzmə çəkilib. Şair "Heydərbabaya salam" üslubunda qələmə aldığı poemada şanlı-şövkətli gölün qurumasından duyduğu əndişə və narahatlığı dilə gətirsə də, nikbinliyini, Urmunun işıqlı gələcəyinə ümidini də itirmir:

---

[1] Nəbioğlu S."Sönməzin poeziyası" ("Qaranquş yazı gözlər" kitabı haqqında). "Ədəbiyyat və incəsənət" qəz., Bakı: 1990, 20 aprel, s.3.

*Urmu gölü, dalgaların qalxanda,*
*Şimşək vurub ildırımlar çaxanda,*
*Coşğun çaylar şarıldayıb axanda,*
*Şirin sular gələr, sən də dolarsan,*
*Qurumazsan, dünya boyu qalarsan...*[1]

Çağdaş Cənub ədəbiyyatının novator şairi, modernizmlə klassisizmi, əski ilə yenini bir araya gətirərək olağanüstü bədii nümunələr yaradan İsmayıl Ülkər Mədədi (1969) "Urmuda urmuluqlar" poemasında çox etkili, insanın iç dünyasını titrədən bir nağıl –"Urmu gölü" nağılını yazmış, olaya əfsanə qanadında yeni yanaşma sərgiləmişdir. İ.Ülkər əsərin süjet xəttini o qədər ustalıqla qurur ki, oxucu sanki Urmu gölünün dünəni və bu günü barədə ağrılı bir film izləyir və gerçəkliklər qarşısında göz yaşlarını saxlaya bilmir. İnanır ki, bu qəmli hekayəti yazan və durumun səbəbkarlarının ünvanına sərt ittihamlar səsləndirən şair də bu əsrarəngiz gözəlliklə birlikdə son nəfəsini verir... Təhkiyə son dərəcə maraqlı preambula ilə başlayır: "Əfsanəyə görə, biri varmış, biri yoxmuş, biri Təbrizdə, digəri isə Urmuda yaşayan iki sevgili varmış... Bu iki sevgili bir-birinə yetişə bilmirmişlər! Buna görə də o qədər ağlamış, o qədər ağlamışlar ki, göz yaşlarından Urmu gölü yaranmışdır! Suyunun duzluluğunun da nədəni bu imış... Urmu gölü boyda bir sevdaya bir öyküdür bu şeir..." İsmayıl Ülkərin yazdıqlarına, onun səmimiyyətinə oxucu qəlbən inanır, şairin yanğısını dərk edir, dərdinə şərik olur. Bu məqamda görkəmli nasir Afaq Məsudun bu sözlərini rahatca ona şamil edə bilirəm: "Yazıçılıq bu dünyada diri-diri boğulub ölməməkdən ötrü içində öz-özünlə apardığın savaşlardan yaranır".

Cənub şairləri çağdaş dövr ədəbiyyatını məhz bu savaşlardan yaratdı...

Cənubun mühacir şairlərinin poema yaradıcılığı Şimali Azərbaycan ədəbiyyatşünaslığında kifayət qədər araşdırıldığından, bu zəngin irsə qısa bir nəzər salaraq, fikirlərimizi **"Cənublu mühacir şairlərin yaradıcılığında poema"** başlığı altında II fəslin 4-cü yarımfəslində verməyi məqsədəuyğun saydıq. Taleləri bir-birinə bənzəyən Balaş Azəroğlu, Əli Tudə, Mədinə Gülgün, Əbülfəz Hüseyni, Söhrab Tahir, Hökumə Bülluri, İsmayıl Cəfərpur və b. şeir və poemalarında o illərin ağır kədər doğuran hadisələri, doğma yurd həsrəti, ikiyə bölünmüş Azərbaycanın ağrı-acıları, vətən övladlarının başına gələn müsibətlər öz bədii əksini tapır, bu əsərlər ədəbiyyatımızı yeni mövzularla, yeni insan xarakterləri ilə zənginləşdirirdi. Müəyyən mənada öz talelərinin şairi olan bu sənətkarlar məhz acı taleyin diqtəsilə Vətənin digər parçasında məskunlaşsalar da, Azərbaycan ədəbiyyatında "mühacir şairlər" səhifəsini yazdılar. Onların poema yaradıcılığını səylə araşdırmış K.Ağamalıoğlu Balaş Azəroğlunun "Ərdəbildə bir meydan var" (1953), "İlk məktub" (1956), "Mənim cəbhə dostlarım" (1975), Əli Tudənin "Əsl yoldaş" (1954), "Səngərli qala" (1950), "Tonqal yanır" (1953), "Doğma səs"

---

[1] http://www.youtube.com/

(1959), Mədinə Gülgünün "Savalanın ətəklərində" (1950), "Firudin" (1963), Söhrab Tahirin "Naməlum şairin şeir dəftəri" (1963), "Ədalət" (1964)", "Aydının gündəliyi" (1971), "Ata" və s. kimi poemalarında Cənubi Azərbaycanda yaşayan bacı-qardaşlarımızın kədərli həyatı, məişəti, onların arzu və düşüncələrinin bu və ya digər şəkildə öz əksini tapdığını yazır xüsusilə vurğulayır ki, "əsərlərin hamısının bədii konflikti irtica qüvvələri ilə azadlıq fədailəri arasındakı bir-birinə daban-dabana zidd münasibətlərin bədii əksidir"[1].

Dissertasiyanın "**Poemalarda ənənə və müasirlik problemi"** adlı III fəslində **"Yeni məzmun axtarışları ənənəviliklə müasirlik müstəvisində"**, **"Poemalarda modernizm cərəyanının təzahürü"**,**"Tarixiliyin müasirlik müstəvisində epik təsviri"**,**"Poemalarda ideya xüsusiyyətlərinin inikası"**, **"Poemaların mövzu dairəsi"** kimi məsələlərə eyni adlı başlıqlar altında işlənən beş bölümdə aydınlıq gətirilir. Bu fəsildə materialları məhz beş yarımbaşlıq altında qruplaşdıraraq poemalarda insanın özünəqayıdışının, ənənələrə səmimi münasibətinin və sadiqliyinin, eyni zamanda yeniliklərə güclü meylinin tarixin bir zərurəti kimi qabardıldığına diqqət yönəldilir. İyirmidən çox əsərin özəllikləri, qapsadığı məna, əhatələdiyi yeni məzmun sferası barədə də məlumat verilir və aydın bir nəticəyə gəlinir ki,Cənubi Azərbaycan ədəbiyyatı müxtəlif dövrlər üzrə inkişaf etmişdir. Hər bir dövrdə mərhələlərlə yeni ideya və konfliktlər yaranmışdır ki, bu da ədəbiyyatın inkişaf konsepsiyasını şərtləndirən əsas hallara çevrilmişdir. Hər mərhələdə Cənub poeziyasının başının üstünü almış inqilab dalğaları azadlıq günəşini doğurmuş və bu, nəticə etibarilə yeni ədəbi meyillərin güclənməsinə zəmin yaratmışdır. İnqilabi mübarizə mövzusu ədəbiyyat üçün spesifik əhəmiyyət kəsb edən məqamlarda təzahür edir, bu təzahür isə ədəbiyyatda inkişafı sürətlənən məqsədlərin, ideya və mahiyyətin açılmasına təkan verir. Bu isə öz növbəsində sənət və sənətkarlıq məsələlərini bədii cəhətdən müəyyənləşdirir.

Ənənə, novatorluq, realist düşüncə tərzi, sağlam ideoloji mübarizə ruhu və s. Cənub şairlərinin diqqət yetirdikləri ən vacib məsələlərdir. Bu baxımdan K.M.Sönməzin "Böyük dərd" poemasında ictimai motivlərə üstünlük verməsi təbii qarşılanır. Poemada müəllifin böyük ustalıqla ifadə etdiyi gizli mətləblər, sətiraltı fəlsəfi məqamlar, gerçəkliyin əksi maraq doğurur:

*Nə yaxşı demişdir ona bir dostu:*
*Şeytan qurğusundan bu, bir pərdədir.*
*Gəz sərçə dalınca, çünki qartalın –*
*Yuvası əlçatmaz zirvələrdədir*[2].

Məcid Şəbbağ Yalqızın "Səməndiyyə" və "Qanlı faciə" minimal poemalarında bu vacib amillərin təsviri daha uğurlu alınmışdır. Satirik ruhlu, həcv

---

[1]Ağamalıoğlu K. Demokratik Azərbaycan Ədəbiyyatında poema janrı. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, ADPU-nun kitabxanası, 1989, s.98, (Əlyazma hüququnda).

[2]Sönməz K.M. Qaranquş yazı gözlər. Ön söz Bəxtiyar Vahabzadənindir. Bakı: Yazıçı, 1989, s.162.

xarakterli "Səməndiyyə" poeması Yalqızın yaşadığı ortamın, cəmiyyətin aynası, güclü əks-sədası hesab olunur. Cəmiyyətdə yoxsulların acınacaqlı həyatını düşünməyən məqam sahibləri, üzdə olan insanların dini titullarından gözdən pərdə asmaq üçün istifadə etməsi, nadan və ikiüzlü hacılar, pulu hər şeydən üstün tutan bazar əhli, qurd kimi yırtıcı, şeytan xislətli tacirlər şairin əsas tənqid hədəfləridir:

*Sənin eşqın-həvəsinlə otuz ildi qaçıram mən,*
*Sənə dən tapmaq üçün quş kimi ancaq uçuram mən,*
*Çarəsiz qalmışam hər bir gələnə fərş açıram mən,*
*Cana gəlmiş belə mənfurlar əlindən, qaçıram mən.*
*Burda pulsuz yaşamaq yoxsul üçün vizri-vabaldır,*
*Səfər etmək bizə hətta yaxına xam bir xəyaldır,*
*Bilet almaq burada indi mahaldan da mahaldır,*
*Nə ki, qaldır*[1].

Hətta Şəhriyarla ortaq mistik obrazlara müraciət etdiyi aydın görünən satirik ruhlu bu əsərindən başqa, "Qanlı faciə" poemasını da M.Ş.Yalqız "Səhəndim"in, "Nehzətabad xatirəsi"ni isə "Behcətabad xatirəsi" qəzəlinin həm məzmununa, həm də vəzninə uyğunlaşdıraraq yazmışdır. XX əsr Cənub şeirinin Sabiri, Möcüzü kimi tanınan Yalqız tendensiyalı yazardır və çoxşaxəli yaradıcılığa malikdir.Bəzən əsərlərində "ürfani fikir və qayələrə də rast gəlmək olur.Onun "Yalqızanə merac" poeması bu baxımdan xarakterikdir.Maraqlıdır ki, hətta ürfani şeir və fikirlərini də çox vaxt şair satira donuna bürüyərək oxucuya çatdırır"[2].

XX əsrin ikinci onilliyində Cənubi Azərbaycan şairləri fars ədəbiyyatında, daha dəqiq desək, poeziyasında təcəddüd hərəkatının, şeirin forma və məzmununda yeniləşmə prosesini həyata keçirməyə başladılar. Prosesin aparıcı qüvvəsi istedadlı şairlər Cəfər Xamneyi, Şəms Kəsmayi, peşəkar naşirlik və aktiv inqilabi fəaliyyəti ilə bərabər, yüksək şairlik təbinə malik, yaradıcılığında vətənpərvərlik motivləri, demokratik ideyalar çox qüvvətli olan gənc şair Tağı xan Rüfət idi. Bu gün Cənubi Azərbaycanın milli şairlərindən biri kimi dəyərləndirilən Həbib Sahirin "Çağdaş Cənubi Azərbaycan sərbəst şeirinin atası" (Hüseyn Düzgün, Məhəmməd Rza Rasipur) səviyyəsinə yüksəlməsində, modernist-novator şair kimi formalaşmasında böyük təkanverici qüvvə məhz Mirzə Tağı Rüfət (1890-1921) olmuşdur. Maraqlıdır ki, eynilə bu yolu yenilikçi şair, türkoloq alim-doktor Həmid Nitqi də getmiş, yaradıcılığındakı bu xətt xüsusilə qiymətləndirilmişdir. Onun müəllimi isə Həbib Sahir idi. Məhəmməd Rza Rasipur Həbib Sahirin poeziyasını "Məşrutə dövrünün poeziyası ilə Nima Yuşicin müasir şeirləri arasında bir körpü" olduğunu, Hüseyn Sədiq isə şairin hansı dildə, vəzn və üslubda yazmasından asılı olmayaraq onun böyük ruha sadiq qaldığını, kökündən və

---

[1]Kafkasyalı A. İran Türklerinin Edebiyyat Antolojisi, VI ciltte, VI c., Erzurum: Atatürk Üniversitesi Basımevi, 2002, s.235.
[2]Yazikiliteratura.narod.ru/lit72.htm.

tarixindən qopmadığını vurğulayaraq demişdir: “Farsdilli poeziyasında da Sahirin sırf Azərbaycan şairi olduğu görünür”[1].

Tağı Rüfətin çağdaş Cənubi Azərbaycan şeirinin təşəkkülü, tərəqqisindəki əhəmiyyətli rolu və müstəsna xidmətləri danılmazdır. Onun ideya və amallarını, bədii yaradıcılıq yolunu istedadlı tələbəsi Həbib Sahir böyük ehtiram və sədaqətlə davam etdirmişdir. “Məktəb xatirələri” adlı əsərində onu böyük hörmət və məhəbbətlə yad edən Həbib Sahir ustad Şəhriyarın “Heydərbabaya salam” mənzuməsinə yazdığı bu nəzirə-poemasında fransız dili və ədəbiyyatı müəllimi olmuş Tağı xana, qəlbində bu qədim mədəniyyət dilinə, şeirə, poeziyaya, ümumiyyətlə, böyük ədəbiyyata dərin sevgi oyatmış ustadına yüksək dəyər vermişdir. O, İran və Cənubi Azərbaycan ədəbiyyatında sərbəst şeir yaradıcılığı yolunda ilk cığır açan novator şairi “Əski ədəb xərabəykən quru yer; Tərvic etdi o, ilk dəfə yeni şeir[2]”, - deyərək vəsf etmişdir. Lakin H.Sahir ustadının modern şeir bağçasında əkdiyi ağacın artıq çiçək açdığını, güllləndiyini görüb sevinsə də, yeni şeirin ilk yaradıcısının unudulduğunu, ədəbi irsinə, şəxsiyyətinə yetərincə qiymət verilmədiyini “Məktəb xatirələri” poemasında ürək ağrısı ilə qələmə almışdır. H.Sahir ustadını “Azər elində” – Cənub və Quzey Azərbaycanda yeganə modernist şair sayır, Tağı Rüfət kimi azad, mütərəqqi düşüncəli neçə-neçə şairin mövcud despot rejim tərəfindən məhv edilib qara torpağa gömüldüyünü vurğulayırdı.

“Yeni şeir”, “yeni üslub” keçən əsrin əvvəllərində farsdilli Cənubi Azərbaycan poeziyasının bir çox nümayəndələrini düşündürürdü. Modernistlər klassik irsin əsrlərdən bəri dəyişilməz kanonlarından, əruz vəzni və onun ənənəvi formalarından istifadəyə də təbii baxırdılar və bəzi şairlər ənənəvi formalardan yeni fikir və mövzuları ifadə etmək üçün istifadə edir, əruz vəzni üçün xarakterik olan tipik bədii təsvir və ifadə vasitələrindən azad şəkildə yeni formada yeni ruhlu əsərlər yaradırdılar. Yeni ədəbi üslubun yaranmasının zəruriliyini dərk edən Mirzadə Eşqi əski qafiyə və ədəbi formaların əsarətindən çıxır, ənənəvi şeir qəliblərində yazsa da, yeni mövzu, yeni obraz, yeni metaforik ladlar və dil vasitələri ilə zəngin olan “Bir qoca kəndlinin idealı”, “Novruznamə”, “Qara kəfən”, “Ehtiyac, ey ehtiyac”, “Qızıl dişli ay”, “Hərc-mərclik”, “Vətən eşqi”, ”İngilis siyasəti” və b. əsərlərini qələmə alaraq bu təmayülə cığır açırdı. Ələkbər Dehxuda, Əşrəfəddin Gilani isə şeir formalarında və qafiyə sistemində dəyişikliklər edir, əsərlərini azad şeir üslubuna yaxın, nisbi qafiyə sərbəstliyinə yol verməklə qələmə alırdılar. Bu tendensiya nəticəsində yeni üslub yaranır, əruz vəzni də öz növbəsində modernləşirdi.

Qeyd edək ki, Yəhya Şeyda Cənubda modernizmin yaradıcıları və bu cərəyanın ilk cücərtiləri ilə bağlı illər öncə yazdığı məqalədə ətraflı bəhs etsə də, bu fakt yenə də diqqətdən kənarda qalmış, İranda yeni şeirin yaradıcısı kimi Nima Yuşic təbliğ edilmişdir. Y.Şeyda yazırdı: “Nimadan əvvəl bu təzə yolda qədəm

[1] Rasipur M.R. Həbib Sahirin novatorluğuna bir nəzər // Tehran: Peyk-e Azər, 1370(1991), s.44.
[2] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 clddə, II c., Bakı: Elm, 1983, s.230.

götürən şəxsiyyətlər var idi ki, Azərbaycanın istedadlı və ibtikar yaradan şairlərimizdən idilər. Tağı Rüfət, Cəfər Xamneyi, Şəms Kəsmayi əvvəlinci şəxsiyyətlərdən idilər ki, ədəbiyyatda böyük təhəvvül vücuda gətirdilər–o zaman sərbəst şer yazmağa başladılar ki, hələ Nima Yuşicdən bir ad yox idi”[1].

Fil.ü.f.d. Mirəli Mənafi də bu məsələyə obyektiv münasibətini açıqlamış, ”İran ədəbiyyatşünasları şairlərdən Əli İsfəndiyarini – Nima Yuşici yeni şeirin banisi hesab etmişlər. Halbuki İranda yeni şeirin təməli hələ Şeyx Məhəmməd Xiyabaninin dövründə Azərbaycan şairləri tərəfindən qoyulmuşdur”, – deyə yazmış və Yəhya Şeydanın yeni şeirin yaranmasını “Təcəddüd” qəzeti və onun ətrafına toplaşan şairlərin adı ilə bağladığını haqlı saymış, faktı təsdiqləmişdir: “Xiyabani hərəkatı və onun nəşr etdirdiyi “Təcəddüd” qəzeti ictimai fikir sahəsində olduğu kimi, ədəbiyyatın da həm forma, həm də məzmununda təcəddüd yaratmasını sübut etmişdir. Sərbəst şeirin təməlini qoymuşdur”[2]. Mirəli Mənafi istər nasir, istər şair, istərsə də publisist olsun, fərqi yoxdur, hər bir qələm adamının öz yazılarında əsas qayələrini, məqsəd və amallarını cümhuriyyət və sosializm ahənginə uyğunlaşdırdığını qeyd edir və yenə də Şəms Kəsmayini yeni şeirin yaradıcılarından biri kimi nümunə gətirir, şairin İranda qadın azadlığı və hüquqları məsələlərini baş mövzuya çevirərək yeni səpkili şeirlər yazdığını söyləyir. Qeyd edək ki, əsil adı Əli İsfəndiyari olan Nima Yuşic də (1896 –1960) bu qaydanı, klassik əruz vəzninin ifadə formalarının sadələşdirilməsi prinsipini əsas götürərək “Əfsanə” poemasını yeni, sərbəst şeir üslubunda qələmə almış (1922) və fars poeziyasna yenilik gətirmişdir. Şairin “Əfsanə” poemasının vəzni, azad qafiyə sistemi, əsərin dialoq formasında qurulması, əruza nisbətən vəzninin sadəliyi və ifadə tərzi onu klassik şeir nümunələrindən xeyli dərəcədə fərqləndirirdi. Nima Yuşic və onun tərəfdarlarının fars ədəbiyyatında başladıqları “Azad şeir” uğrunda hərəkatın əsas məqsədi şeirin formasını məzmununa tabe etmək, məhdud vəzn və qafiyə çərçivəsindən çıxarmaq, fikrin ifadə imkanlarını və hüdudlarını genişləndirmək idi. Ümumiyyətlə, İranda modernizm hərəkatı genişləndikcə ədəbiyyatda böyük canlanma yaranır, sərbəst şeiri qəbul edənlərlə etməyənlər arasında kəskin fikir ayrılığı özünü göstərirdi. Lakin həm fars, həm də türkdilli şairlərin yaradıcılığında yenilikçi – novator müəllif mövqeyini aydın şəkildə nümayiş etdirən M.Şəhriyar həmin yeniliyi təkcə şeirin formasında deyil, ideya, məna və mövzu yeniliyində, eyni zamanda bu yenilikləri ifadə etmək bacarığında, bütövlükdə sənətkarlıq xüsusiyyətlərində görürdü. Ümumiyyətlə, Şəhriyar ustad bir sənətkar kimi bütün forma və vəznlərdə, istər əruz, istər heca, istərsə də sərbəst vəzndə həqiqi sənət əsərləri yaratmağın mümkünlüyü müddəasını doğru hesab etmişdir. “Eynşteynə peyğam, yaxud məktub”, “Mumiyalanmış adam”, “Tehran və

---

1 “Dədə Qorqud” jurnalı, Təbriz: sayı 13, s.42.

2 XX əsr Cənubi Azərbaycan Ədəbiyyatında demokratik ideyalar (1900-1985) // Məqalələr məcmuəsi. Redaktoru: M.Aslanov, Bakı: Elm, 1990, s.80.

tehranlı", "Dunay çayının bəşəriyyətə müraciəti", "Şair və yazıçıların qurultayında Ülya Həzrət Şahbanu Fərəhin xitabəsi", "Nəqqaş, yaxud rəssam", "Qəlbin sayıqlaması", "Alnımın yazısı", "Ey-vay, anam", "Xan nənə", "Səhəndim" əsərlərinin yazılması məhz müasir fars şeirinin qüdrətli nümayəndələri Nima Yuşic, Səyavuş Kəsrai, Əhməd Şamlu, Rza Bərahani, Nadir Nadirpur, Fərrux Fərruxzad kimi azad şeir sənətkarlarının yazıb-yaratdıqları, çağdaş fars və Cənubi Azərbaycan poeziyasında məhz Tağı xan Rüfətin əsasını qoyduğu üslubun, sərbəst şeirin təzahürüdür.

III fəslin **"Tarixiliyin müasirlik müstəvisində epik təsviri"**adlı 3-cü yarımfəslində göstərilir ki, XX əsr Azərbaycan ədəbiyyatının inkişaf istiqamətləri, poemalarda müasirlik və yeniləşmə meyarının səciyyəvi hal alması sovet dövrü ədəbiyyat tənqidçilərinin gəldiyi qənaətdən çox asılı idi. Həm o dövr, həm də sonrakı nəsil tənqidçilər ordusu poema janrının spesifik xüsusiyyətlərini tarixilik və müasirliyin vəhdətində təhlil etməklə, həm də janrın mahiyyətində yeniləşmə faktorunu mühüm cəhət kimi qabardırdılar. Bu yeniləşmə mənzum əsərlərdə keyfiyyət göstəricilərinin yüksəlməsinə meydan verirdi.

Cənubi Azərbaycan ədəbiyyatında tarixilik və müasirlik prinsiplərinin yaradıcılıq prosesinə cəlb olunması keyfiyyətli bədiiyyatın təminatçısına çevrilirdi. XX əsrin 30-cu illərindən başlayaraq tədqiqatçılar arasında poema janrına münasibətin birmənalı olmaması ədəbiyyat aləmində tarixilik və müasirlik məfhumlarının da düzgün şərh edilməsinə mənfi təsir göstərmişdi. Belə bir vaxtda ədəbiyyatda müasirlik başlıca olaraq poeziyada öz bədii inikasını tapır, bəzi yazarlar poema janrının müasir anlamda təzahürünü ciddi qəbul etmir, poemalarda yalnız qeyri-leqal xarakter daşıyan hisslərin ifadəsinə çalışırdılar. Özbək şairi Rəmzi Babacanın bu fikirləri də görünür həmin nəticədən doğmuşdu: "Poema janrının vəziyyəti həyəcan doğurur. O, öz köhnə simasını itirib, yeni keyfiyyətləri isə hələ özününküləşdirə bilməyib"[1].

Həyatla, ictimai proseslərlə, cəmiyyət quruculuğu və siyasi mübarizələrlə bağlı yaranan ədəbiyyatda tarixilik və müasirlik prinsiplərinin gözlənməsi mühüm əhəmiyyət daşıyan cəhətlərdəndir. Tarixi hadisələri və tarixi şəxsiyyətləri geniş şəkildə əks etdirən əsərlər əsas etibarilə zaman və tarix baxımından səciyyələndirilir. Belə əsərlər oxucunu ictimai ədalətsizliklərlə barışdırmağa, onun düşüncəsini istismar dünyası ilə mübarizə zərurətindən uzaqlaşdırmağa və onda bu mübarizənin əhəmiyyətsiz olduğu barədə yanlış təsəvvür yaratmağa çalışan əsərlər deyil. Əksinə, bu əsərlərdə yazarlar ilk əvvəl tendensiya yaratmağa cəhd edir və sonda oxucunu mükəmməl bir ədəbiyyat nümunəsi ilə üz-üzə qoyurlar. Məsələn, Hüseyn Düzgünün "Şeyx Məhəmməd Xiyabani" adlı dörd poemasında tarixilik və müasirliyin yekun həddini oxucu aydın dərk edir. Şarin tarixi-ictimai və hətta

[1]Бабаджан Р. Лучше старая картина // Литературное обозрение, Москва, 1974, № 1, с.45.

siyasi məsələlərin mövcudluğu aydın dərk olunan bu əsərində vətənpərvərlik, parlaq humanizm, yurd sevgisi, doğmalara məhəbbət, elin yolunda şirin canından belə keçməyə hazır olmaq, rejimin zorakılığı, xəyanəti və s. kimi məsələlər geniş planda əks olunur. Yaşadığı cəmiyyətdə ümumi fəlakətin - Xiyabaninin qurduğu azad Azəristan dövlətinin məğlub edilərək inqilabçılara divan tutulmasının, liderin öldürülməsinin əsl səbəbini təbii ki, Hüseyn Düzgün hakim dairələrin ləyaqətsizliyində, xəyanətində görür, ölkədə sədaqətli və xalqına dəyər verməyi bacaran sülhsevər bir rəhbərin hakimiyyət başında olmamasına təəssüflənir. Bu da təbii ki, tarixi zəmində cərəyan edən bir məqamdır. Tarixi hadisələrə yaradıcılıqla yanaşan Hüseyn Düzgünün "Səməd Behrəngi" poemasında fədakar, xalqın aydın gələcəyi, əqidəsinin zəfər çalması uğrunda canını qurban verən görkəmli nasirin başına gətirilən qanlı olay, üzləşdiyi çətinliklər və konkret faktların timsalında onun yaşadığı cəmiyyətin əsl siması açılır. H.Düzgün qarşısına qoyduğu bədii məqsədə - insan həyatını təsvir etməyə, epik qəhrəmanının yaşamını doğru-düzgün əks etdirməyə nail olur. Səməd Behrənginin yaşadığı dönəmin tələblərini nəzərə alaraq əsərinin süjet xəttini quran Hüseyn Düzgün kimi, Mir Cəlil Hüseyni də "Qanlı günəş" poemasında 20 il Ərəb xilafətinə qarşı ölüm-dirim mübarizəsi aparan və əsarətə "Yox!" deyən Babək obrazını yaşadığı dövrün hadisələri kontekstində yaratsa da, dövrün və janrın tələblərinə uymamışdır. Şair bu poemada çağdaşlıqla ənənviliyin vəhdətini yaratmış, ənənəvi vəzn kanonlarından çıxmış, yeni baxış, yeni yanaşma sərgiləmişdir. Qız və qadınların tarixi qəhrəmana güclü sevgisinin təsvirində olduğu kimi:

*Elə ki düşmən alıb Bəzz qalasın məqsədə çatdı.*
*Nə qədər varsa igidlər boyanıb al qana batdı.*
*Qalanın bayrağı yatdı.*
*Sanma qızlarla gəlinlər şərəfin yadlara satdı.*
*Ya ki ağlar gözilə baş açaraq nalə ucaltdı.*
*Yapışıb əl-ələ onlar elə bir səhnə yaratdı.*
*Yaşa Babək, deyərək özlərini qaladan atdı.*
*Qanların, qanlara qatdı*[1].

Ədəbi hərəkatın əsas ağırlığını çiyinlərində daşıyan və 21 Azər inqilabının ideallarına sadiq qalan M.Şəhriyar, B.Q.Səhənd, Ə.N.Oxtay, H.M.Savalan, A.Bariz, K.M.Sönməz, M.Q.Qaflantı, H.S.Düzgün, Türkoğlu, Urmuoğlu, M.S.Şami, M.Ə.Haray, M.C.Hüseyni və b. yaradıcılığında tarixilik və müasirlik aparıcı xətdir.

**"Poemalarda ideya xüsusiyyətlərinin inikası"** və **"Poemaların mövzu dairəsi"** adlı 4-5-ci yarımfəsillərində ədəbiyyatın bütün dövrlərində aparıcı qolu olmuş bu janrın əhatələdiyi əsərlərin–poemaların ideya xüsusiyyətləri, mövzu dairəsi açıqlanır. Göstərilir ki, istər Cənub və Quzey Azərbaycan, istərsə də digər

---

[1] Hüseyni M.C. Qanlı günəş. Naşiri-Azər Səban, Təbriz: Əbcəd, 1382 (2003), s.16.

ölkələrin ədəbiyyatında onu yaradan sənətkarların yaşadığı dövrün, mühitin ağrı-acıları, ümumi ab-havası əks olunur. İctimai həyatın uğurları, nöqsanları, insanların psixologiyası, həyat tərzi və s. də yazarların yaradıcılığında geniş surətdə təcəssüm etdirilir. Biz insanın ağrı-acısının, iç dünyasının, onun gündəlik məişət qayğılarının, əhatə olunduğu ictimai mühitin və s. poemalarda daha qabarıq şəkildə əks edildiyini görürük.

Özünəqayıdış, ənənəvilik və novatorluq milli dünyagörüşü üçün tarixi bir zərurətdir. Cənub şairlərinin yaradıcılığında insan və zaman anlayışı, həyat gerçəkliklərinə dinamik münasibət əsasdır. Onlar həyati və insani münasibətlərə baxış prizmasını elə cəlbedici formada oxucuya təqdim edirlər ki, əxlaq kodeksi və insanın davranışındakı bəşəri psixoloji aspekt müxtəliflikdən çıxır, sanki hər bir oxucuya tanış olan bir çərçivədə cərəyan edir. Eyni zamanda insan faktoru və zaman-məkan müstəvisində insanın mahiyyəti epik-lirik şəkildə özünü göstərə bilir. Poemalarda insanın iç dünyası, mahiyyəti qabarıq verilməyə başlayır və nəticədə Mircəlil Hüseyninin "Qanlı günəş", Huşəng Cəfərinin "Ağ atım", Hüseyn Düzgünün dörd hissəlik "Şeyx Məhəmməd Xiyabani", Hadi Qaraçayın "Sonsuzluq",Kiyan Xiyavın"Yapa-yalnız, kimsiz, kimsəsiz, kimliksiz-faciə (Avtobioqrafiya)", "İt bayramında, qartal ardınca", "Hopbul-hop", "Aman sevgilim!" kimi yeni ruhlu, modern poemaları yaranmağa başlayır. K.Xiyav "İt bayramında, qartal ardınca" adlı modern poemasında əski motivlərə və gələnəklərə yeni poetik baxış sərgiləyir, köhnənin yeni formada təsvirini təqdim edir:

*Bu an yapayalnız deyiləm, kimsiz, kimsəsiz, kimliksiz də deyiləm.*
*Cəmiyyətin cadarlanmış cümcüməsindən cücərmiş, mənəm!..*
*əynimdə gül yarpağı tək qutsal köynəklər bayrağı.*
*Və beynimdə xurma şərabları təkçeşidli düşüncələr istisi*[1].

Ədəbiyyatda mövzu seçimi məsələsi ən vacib və mühüm məsələlərdən sayılır. Şair qələmə aldığı əsərdə ilk olaraq mövzunu müəyyənləşdirir. Çünki yaxşı mövzu konkret həyat hadisələrini daha qabarıq verməklə oxucuda yeni düşüncə tərzi formalaşdırır. Müsbət haldır ki, müasir ədəbiyyatımızın ayrılmaz qolu olan Cənubi Azərbaycan ədəbiyyatında bu ölçüyə diqqət yetirilir.

Müharibə mövzusu ədəbiyyata yeni tipli xarakterlər gətirməklə, söz sənətində ideologiyanın məqsəd və məramını da müəyyənləşdirdi. Bu, Cənub ədəbiyyatında inqilabi əhvali-ruhiyyənin oyanmasına imkan verdi. Nəticədə, bir sıra poemalarda müharibə mövzusu qabardılmaqla cəmiyyət üçün yararlı olan fəal ictimai fikir formalaşdırılmağa başlandı. H.Nasirinin "Qəhrəmanlar" poemasında qabardılan qəhrəmanlıq motivləri M.Biriyanın "Azərbaycan əsgəri" poemasını xatırlatsa da, o, bu əsəri ilə ədəbiyyata yeni tipli xarakterlər gətirmiş, həm də ədəbiyyatın inkişaf meyillərinin müəyyənləşdirilməsinə istiqamət vermişdir.

---

[1] www.facebook.com/Kiyan.Xiyav.

1930-cu illərdən başlayaraq, həm Quzey, həm də Cənubi Azərbaycan poeziyasında dövrün, zamanın diqtəsi ilə beynəlxalq məsələlərin əks-sədası olan bəşəri mövzular mühüm əhəmiyyət kəsb etməyə başlayır. Qələm adamları bu mövzu ətrafında əsərlər yaradır, beynəlxalq arenaya çıxmağa başlayır, bəşəriyyəti narahat edən problemlərin həlli yollarının axtarılıb tapılmasında yaradıcı dünya birliyinin sıralarına qoşulurlar.

1930-40-cı illərdə Cənubi Azərbaycan ədəbiyyatında maddi və mənəvi məsələlərin qabarıqlaşaraq sonrakı illərdə daha geniş şəkildə formalaşmağa başlaması ədəbiyyatda özünüdərk faktorunun müəyyənləşməsinə gətirib çıxarırdı. Cənubi Azərbaycan ədəbiyyatı üçün yeni olan bu istiqamətə güclü təkan verən, bununla da ədəbiyyatdan əbədiyyətə körpü salan təkrarsız söz ustadlarından biri mübariz ruhlu şair B.Q.Səhənddir. Onun "Sazımın sözü" poemasında ruhani, hissi oyanış və milli özünüdərk fəlsəfəsi öz təsdiqini tapır. Şairin milli özünüdərk prosesində Azərbaycan qadınının, Ana obrazının yeri, əsərlərində bu mövzuya xüsusi diqqət yetirməsi süjetə paklıq və qüdrət motivləri aşılamaqla cəmiyyətdə mübarizlik əmsalını mənəvi gücün hesabına daha da artıra bilir. "Sazımın sözü"ndə bu istiqamət Azərbaycan xalqının əxlaq və mənəviyyatında formalaşmış qadına dərin hörmət hissini qabarıq və inandırıcı verməklə realizə olunmuşdur. Mövzunun aliliyi B.Q.Səhəndə imkan vermişdir ki, mənsub olduğu xalqın şan-şöhrətli tarixini, qədim mədəniyyətini, zəngin mənəviyyatını, özünəməxsus adət-ənənələrini tərənnüm edə bilsin.

Bütün bəşəri mövzuları özündə birləşdirən "Sazımın sözü" poemalar silsiləsinə başqa bir rakursdan baxdıqda da düşündürücüdür. Poemada boyların hər birinin süjet xətti fərqlidir, çoxşaxəli və əhatəlidir, mövzu dairəsi geniş və rəngarəngdir. Mövzuya yanaşması ilə, yaradıcılıq potensialından mükəmməl istifadə etməklə buna nail olan şair qəhrəmanlıq eposuna yenidən qayıdır. Lakin təkcə igidlərin qəhrəmanlığını ön plana çəkməklə kifayətlənmir, eyni zamanda, igidləri dünyaya gətirərək öz südü ilə bəsləyən, mükəmməl, cəsur bir igid kimi böyüdüb boya-başa yetirən, ismətli və mərd analarımızdan bəhs edir. Qəlbində böyük vətən sevgisi, heç nə ilə əvəz olunmayan təmənnasız, ilahi sevgi daşıyan ana, bacı, sevgili olan kişi qeyrətli qızlarımızın təfəkkürünü açır:

*Keçmişləri varaqla, bax, haman zaman, elə o vaxt,*
*Bizim yerdə, bizim eldə qadınlığa hörmət varmış.*
*O da haqlı bir insanmış, qardaş imiş öz ərinə*
*Güləşərmiş, vuruşarmış, at minərmiş, ox atarmış.*
*Boyu uzun Burla xatun, saçı uzun Selcan xatun*
*Nigar xanım, Ərəbzəngi, Həcər xanım, Zeynəb paşa*[1].

[1] Səhənd B.Q. Sazımın sözü. Tərtib edəni və ön sözün müəllifi Ruqiyyə Qənbər qızı. Bakı: Yazıçı, 1984, s.221.

Bu dövrün poemalarında Vətən ağrısı, yurd həsrəti, yasaq edilmiş ana dilinin buxovlardan qurtuluşu yollarının axtarşı və inkişaf etdirilməsi özünəməxsus tərzdə, bütövlüyün təcəssümü halında bədiiləşdirilir. Bu mənzum nümunələrdə paradoksal amillər, didaktik parametrlər, bir-biri ilə təzad yaradan müəyyən müxtəlifliklər, ədəbi-bədii müstəvidə cərəyan edən dünyəvi hisslər, bəşəri duyğular, milliliyin formalaşması istiqamətində atılan addımlar, olacaqdan olmuşlara kölgələnən ədəbi sıçrayışlar və s. bəşəri niyyətlər kontekstində verilir, bu mürəkkəbliyin ifadəsində Ümumazərbaycan ədəbiyyatının bütün dəyərlərindən yararlanmaqla, onun nəzəri əsaslarına da ciddi riayət edilir.

Tədqiqat boyu bu nəticəyə gəlinir ki, poemalarda başlıca olaraq həyat hadisələri, obyektiv gerçəklik, xalqın və zamanın ruhu, qədim oğuz yurdunun keşməkeşli taleyi, ana təbiətin gözəllikləri öz parlaq bədii ifadəsini tapır və eyni zamanda şair–lirik qəhrəman təsvir etdiyi hadisələrə fərdi münasibətini ifadə edir, təsvirlə tərənnümü çox vaxt paralel şəkildə inkişaf etdirir.

Dissertasiyanın IV fəsli **"Cənubi Azərbaycan epik şeirinin poetik sistemi"** adlanır və araşdırma dörd yarımfəsildə davam etdirilir. Bu fəslin **"Lirik poemalar"** adlı 1-ci yarımfəslində vurğulanır ki, poema janrı və onun üç əsas növü – lirik, epik və dramatik poemalar rişəsini, başlanğıcını xalq yaradıcılığından götürmüşdür. Birinci fəsildə də qeyd etdiyimiz kimi, xalq əfsanələrinin, mifoloji süjetlərin, nağılların, mahnıların, nəğmə və digər janrların sinkretik (bütöv) sənətdən ayrılması nəticəsində lirik, epik və dramatik növlər formalaşmışdır.

Zaman keçdikcə lirik, epik və dramatik növlər inkişaf edərək daha mürəkkəb şəkil almış və bu ədəbi formalar öz ilkin xüsusiyyətlərini, əlamətlərini tədricən bu və ya digər dərəcədə itirmiş, yeni xüsusiyyətlər qazanmışlar.

Araşdırma materiallarına əsasən məlum olur ki, poemalarda hadisələrin epik təsviri ilə lirik tərənnümünün nisbəti müxtəlifdir. Bəzi poemalarda təhkiyə, bəzilərində isə tərənnüm üstünlük təşkil edir. Hadisələrin epik təsviri üstün olduğu əsər epik-lirik əsərlər sırasına daxildir. B.Q.Səhəndin (1926-1979) məşhur "Sazımın sözü" epopeyası epik-lirik poemaların ən mükəmməl nümunələrindəndir. "Kitabi-Dədə Qorqud"un özü isə dastan-eposdur. Təsadüfi deyil ki, "Kitabi-Dədə Qorqud"un janr göstəricisi olan "dastan" tipologiya baxımından "türk xalqlarının ədəbiyyatlarında mövcud olan təhkiyəli şeir, poema"[1]kimi səciyyələndirilmişdir. "Bu cəhətdən "Dədə Qorqud" motivlərinin müasir poeziyada poema janrına doğru inkişafı təbii görünür"[2]. "Kitabi-Dədə Qorqud" eposu oğuz qəhrəmanlarını tərənnüm edir. Qəhrəmanlıq ruhunun müasir ədəbi düşüncəyə gətirilməsi faktiki olaraq özünə uyğun estetik forma - poema janrını tələb etmişdir. Beləliklə, "Poema şeir ilə hekayətin elə bir xüsusi növüdür ki, orada tərənnüm ruhu, qəhrəmanlıq ruhu var,

[1] Словарь литературоведческих терминов. Редакторы-составители: Тимофеев Л.И. и Тураев С.В.. Москва: Просвещение, 1974, с.62.
[2] İsmayılova Y. "Dədə Qorqud kitabı" və müasir Azərbaycan ədəbi düşüncəsi. Bakı: Elm, 2011, s.20.

həyatın yalnız ali həqiqətlərini göstərməklə vəcdə gələn şair ürəyinin döyüntüləri var”[1].

Qəhrəmanlıq ideyalarının ədəbiyyatdakı dolğun təcəssümü özünə uyğun janr tələb edir. Bu janr isə poemadır. Çünki poema janrının ruhunda, janr yaddaşında dastan-epos yaşayır. Bu cəhətdən Azərbaycan ədəbiyyatında “Dədə Qorqud” motivlərinin poema janrına qədər inkişaf etməsini “Kitabi-Dədə Qorqud” eposunun müasir ədəbiyyatımızda öz uyğun janrını “tapması”, yaxud öz doğma janrına “qovuşması” kimi izah etmək mümkündür. “Azərbaycan poeziyasında “Kitabi-Dədə Qorqud” motivləri ilə bağlı yaranmış poemaları iki qismə ayırmaq mümkündür: Birincisi, eposla qismən (müəyyən elementlərlə) bağlı olan poemalar. İkincisi, “Dədə Qorqud” motivləri üstündə yazılmış poemalar”[2]. “Kitabi-Dədə Qorqud”un janr poetikası ilə poema janrının poetikası arasında tipoloji bir “qohumluq”, “doğmalıq” var. L.Timofeyev yazır: “Poema”–liroepik janrın böyük forması, süjet-təhkiyə quruluşuna malik şeir, şeirlə yazılmış povest, yaxud romandır[3]. Epik poema müəllifdən möhkəm süjet xətti qurmağı, surətlərin fəaliyyətində meydana çıxan gərgin konflikt yaratmağı, qəhrəmanları hərtərəfli göstərməyi, daha doğrusu, fərdiləşdirməyi, xarakter səviyyəsinə qaldırmağı tələb edir. Mükəmməl süjet xəttinə, gərgin konfliktə malik olan mənzum romanın spesifikası nədir?–sualı X.Rzanı da düşündürmüş və bu sualın ən uyğun cavabını o, V.Q.Belinskinin ədəbi-tənqidi əsərlərində tapmışdır. C.Bayronun mənzum romanını nəzərdə tutan şair yazır: “Təsvir edilən həyat həqiqətində poeziyanın və prozanın qarışığı, ricətlər, şairin öz-özünə müraciətləri və xüsusilə şairin şəxsiyyətinin özünü hədsiz dərəcədə hiss etdirməsidr”[4].

“Poema, əslində, qəhrəmannamədir. Nadir şəxsiyyətin və ya nadir bir hadisənin yüksək pafos ilə tərənnümünə həsr olunan poemanın ədəbiyyat tarixi boyunca müxtəlif nümunələri olmuşdur”[5], – deyən prof. Mir Cəlal Paşayevin fikirlərinə əsaslansaq, poema janrı poetikası etibarilə qəhrəmanın tərənnümüdür, qənaətinə gələ bilərik. Bu element qəhrəmanlıq dastanının da əsas keyfiyyətidir.

Ancaq poemada lirika təhkiyəyə nisbətən daha üstün meyar kimi səciyyələndikdə, lirik vüsət aydın duyulduqda, o, lirik-epik əsər statusu qazanır. M.Şəhriyarın “Gecənin əfsanəsi” və “Səhəndiyyə”, B.Q.Səhəndin “Sazımın sözü”, K.M.Sönməzin “Yeni yol”, yaxud “Aman dağlar”, M.Biriyanın “Ərk qalası əfsanəsi”, H.Tərlanın “Araz gülür”, N.Şərəfxaninin “Urmu dəryaçası”, M.N.Muğanın “Sultan Savalan”, M.C.Hüseyninin “Qanlı günəş”, M.T.Zehtabinin

---

[1] Rza X. Poema janrının inkişaf yolları (1945-1950). Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, 1965, APU-nun kitabxanası, s.20, (Əlyazma hüququnda).
[2] İsmayılova Y. “Dədə Qorqud kitabı” və müasir Azərbaycan ədəbi düşüncəsi. Bakı: Elm, 2011, s.182.
[3] Тимофеев Л.И. Основы теории литературы. Москва: Просвещение, 1976,с.286.
[4] Rza X. Göstərilən dissertasiya, s.18, (Əlyazması hüququnda).
[5] Cəlal M., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1972, s.135.

“Şahin zəncirdə”, “Pərvanənin sərgüzəşti”, “Bəzz qalasında”, “Bəxti yatmış” və b. kimi poemalarda lirika, sənətkarın hiss və həyəcanlarının, emosional duyğularının ifadəsi də qüvvətli olduğundan, bu əsərlər lirik-epik əsərlər sayılır. Lirik-epik poemalarda hadisələrin özündən çox lirik qəhrəmanın hiss və həyəcanları ön plana gətirilir. Belə əsərlərdə müəllif öz qayəsini lirik səpkidə ifadə etməyə çalışır. Orijinal, təptəzə metaforalar mənanı qüvvətləndirir, söz və fikirlərə cilvə verir.

IV fəslin **“Epik poemalar”** adlanan 2-ci yarımfəslində göstərilir ki, lirik poemalarda qəhrəmanların duyğu və düşüncələri, onların hiss və həyəcanları ön planda dayanırsa, epik poemalar üçün obrazların xarakterini, rəngarəng süjetlər vasitəsilə əks etdirmək meyli daha güclüdür. Dramatik poemalar üçün isə konflikt və onun bədii həlli məsələsi səciyyəvidir. Əlbəttə, ədəbiyyat tariximizdə bu bölgülərə uyğun poemaları seçib qruplaşdırmaq, bədii təhlilləri həmin istiqamətdə aparmaq da olar. Lakin poema elə spesifik janrdır ki, lirik poemada epik, dramatik, epik poemada lirik, dramatik, dramatik poemada isə lirik və epik ünsürlər tapmaq çətin deyil. Poemalarda adlarını çəkdiyimiz elementlər elə qovuşuqdur ki, çox zaman hər hansı bir əsərin tipini müəyyənləşdirmək çətinlik törədir. Konkret ədəbi meyar olmadığından ayrı-ayrı tənqidçilər, ədəbiyyatşünaslar çox vaxt eyni əsərin ya lirik, ya epik, ya da dramatik olduğunu əsaslandırmağa çalışaraq əsərdəki lirik, epik, dramatik ünsürləri qabartmaqla qənaətlərinin doğruluğunu sübut etməyə səy göstərmişlər. Əgər sovet dövrü ədəbiyyatşünaslarının bir qismi, məsələn, E.Umanskaya poemalarda yalnız epik vüsətə xüsusi önəm verərək “epizmi poemanın ən əsas elementi”[1] hesab edirdisə, digərləri, A.L.Mixaylov, L.Ozerov, S.Smirnov, Q.Mirzoyev, H.Dorizo, X.Rza, İ.Kəbirli lirikanı, başqa qrup tədqiqatçılar - M.Çislov, A.M.Banketov, Mir Cəlal, M.Arif, Y.Qarayev, M.Cəfər, M.Əlioğlu, Q.Qasımzadə, Ş.Salmanov, Ş.Alışanlı və b. isə epizmlə lirizmin vəhdətini daha üstün sayırdılar. Bu isə fikir ayrılığına gətirib çıxarırdı. Lakin XX əsrin ortalarından etibarən ümumədəbiyyatda yeniliyi və müasirliyi başlıca keyfiyyət kimi təzahür etdirən tənqidçi ordusu meydana çıxdı ki, onlar poemalara oxucu münasibətini tamamilə dəyişdilər və sələflərindən fərqli olaraq poemalarda epik vasitə ilə lirik xüsusiyyətlərin vəhdət təşkil etdiyini bildirməklə, həm də bu janrın epik-lirik və ya lirik-epik olduğunu təsdiqlədilər. Ədəbi mühit də bu tendensiyanı qəbul etdi. Əslində poemalarda epizmlə lirizmin vəhdətdə təzahür etməsi janrın bədii dəyərini azaltmır, əksinə, artırır.

A.Y.Adalis “Literaturnaya qazeta”da dərc etdirdiyi "Çto est poema?" (“Poema nədir?”) adlı məqaləsində[2] janra müxtəlif yönlərdən yanaşaraq “Poema nədir?”, “Poema dedikdə nə başa düşürük?” kimi suallara cavab axtarır və sonda bu qənaətə gəlir ki, poema janrının bəlli qanunları yoxdur. Heç bir tənqidçi,

---

[1] Уманская Э. Зачем поема? //Литературное обозрение. Москва: 1972, №2, s.50.
[2] Адалис А.Е. Что есть поэма? Литературная газета, Москва, 1965, 29 мая.

nəzəriyyəçi, hətta poema yazan sənətkarlar belə bunun nə olduğunu dəqiq açıqlamamışlar. Halbuki hər növün, hər janrın öz qanunları olmalıdır...

Türkiyə ədəbiyyatında isə "poema"ya mənzum hekayə, böyük mənzumə kimi adlar verilmiş, janr haqqında hər hansı bir özəl araşdırma aparılmamışdır[1].

Təəssüflə qeyd edək ki, Cənubda türkcəyə qoyulan qadağalar janr haqqında diskussiyalar açmağa, analitik təhlil aparmağa belə imkan vermirdi. 1950-70-ci illərdə ədəbi tənqid demək olar ki, "Heydərbabaya salam", qismən də "Sazımın sözü" poemaları haqqında yazılanlarla sınırlanırdı. Məhz bu səbəbdən Cənubi Azərbaycanda hər hansı bir janrda ana dilində əsər yazmağın özü bir fədakarlıq nümunəsi idi...

Cənubi Azərbaycan ədəbiyyatında epik poema janrında yazılan əsərlər sırasında qəhrəmanlıq motivlərinin güclü olması ilə seçilən M.Biriyanın "Azərbaycan qəhrəmanı", M.Şəhriyarın "Stalinqrad", H.Nasirinin "Qəhrəmanlar" poeması öndə durur. A.Maralanlının "Qarabağ ürəyimdir", N.Şərəfxaninin "Urmu dəryaçası", N.Əzhərinin "Yelenay", M.C.Hüseyninin "Qanlı günəş (Babək)", M.Biriyanın "Ərk qalası" və "Azərbaycan qəhrəmanı", H.Nitqinin "Təbriz", "Günəş" və "Dastan ölməz", M.S.Şaminin "Ana ürəyi", "Necə şair yarandım mən", M.Ə.Harayın "Yandırılan sazlar" və "Tarçı Şulan", M.Ş.Yalqızın "Səməndiyyə" və "Qanlı faciə", H.Tərlanın "Araz gülür", K.M.Sönməzin "İsanın son şamı", "Böyük dərd" və "İtin vəfası" poemalarında lirik haşiyələrlə yanaşı, təhkiyənin, epik vüsətin də güclü olduğu müşahidə edilir. M.Biriya "Ərk qalası" və "Azərbaycan qəhrəmanı" poemalarında maraqlı təhkiyə ilə iki sevən insanın bir-birinə olan eşqini və bu eşqə, sevgiyə aşiqlərin sədaqətini poetik sözün qüdrəti ilə oxucuya çatdırır. M.S.Şaminin "Ana ürəyi" poemasında isə süjet tam fərqli sevgi hadisəsi üzərində qurulmuşdur. N.Şərəfxani "Pişik istir pələng ola", M.T.Zehtabi "Şahin zəncirdə", "Pərvanənin sərgüzəşti", H.Tərlan "Simurq və şahin", M.S.Şami "Qartal" poemalarında yeni, mütərəqqi fikirlərini, realist, həyati düşüncələrini alleqorik obrazların son dərəcə maraqlı təhkiyəsi ilə ifadə etməyə üstünlük vermişlər.

M.C.Cəfərovun tabirincə desək, poemada birinci növbədə, konkret həyat hadisələrinin və insan taleyinin epik təsvirləri, tipik xarakter yaratmaq, monumentallıq, kompozisiya bütövlüyü tələb olunur. Poemada təsvir olunan hadisə və insan fəaliyyətinin əvvəli, axırı olmalıdır. Belə poemalarda lirika, lirik ricətlər isə ancaq hadisələrin mahiyyətinin, ictimai-siyasi, əxlaqi

mövzunun açılmasına xidmət edən bir vasitə olur. Başqa sözlə, poemada epik təsvir əsas götürülür. Lirika, lirik haşiyələr köməkçi vasitə rolunu oynayır.

Bu fəslin **"Dramatik poemalar"** adlı 3-cü yarımfəslində dramatik poemaların məziyyətləri açılır və bir janr kimi onun kifayət qədər uzun inkişaf tarixinə malik olduğu, kökləri etibarı ilə Şekspirə qədərki dövrə gedib çıxdığı konkret faktlar əsasında açıqlanır. Göstərilir ki, "dramatik poema" bir termin və

[1]Akpınar Y. Azerî Edebiyatı Araştırmaları. İstanbul: Dergâh Yayınları, 1994, s.351.

anlayış kimi ilk dəfə ingilis şairi Milton tərəfindən dövriyyəyə buraxılmışdır (XVII əsr). Daha sonra bu termin məzmun baxımından tamamlanmış və o dövrün əsas hadisələrinə qiymət vermək baxımından danılmaz vasitəyə çevrilmişdir. Bu kontekstdə Lessinq və Şillerin əsərlərini nümunə göstərmək olar. Lessinqin poeması janr təyinatı baxımından spesifik hesab edilə bilər. Belə ki, onun əsərində xarakterlərin deyil, ideyaların toqquşmasına və bir-birini dəf etməsinə diqqət yetirilirdi. Bu janr daha sonralar Avropa ədəbiyyatlarında romantizmin çiçəklənməsi dövründə forma və estetik kredo baxımından zənginləşir. Məhz həmin dövrdə personajların dialoq və monoloqları canlı şəkil alır, janr dərininə inkişaf prosesini keçirir. Romantizm dövrünün şairləri artıq monoloqla kifayətlənmir, tarixin ayrı-ayrı böhranlı dövrlərinin hiss və həyəcandan aşıb-daşan mənzərələrini canlandırmaqla tarixin dramatik mahiyyətini üzə çıxarmağa can atırdılar. Daha sonralar rus poeziyasında dramatik poema janrı öz sərhədlərini genişləndirdi, buraya xüsusi ilə Puşkinin kiçik faciələrini aid etmək mümkündür.

Poemada konflikt ideya və məzmunun uyğun xarakter daşımasına zəmin yaradır. Ədəbiyyatşünaslıqdan isə məlumdur ki, konfliktin həyatiliyi, xarakterlərin zənginliyi və mürəkkəbliyi əsərin bədiiliyinin meyarıdır. Akademik M.Arif Azərbaycan poeziyasının inkişaf meylləri və istiqamətləri haqqında qələmə aldığı məqaləsində yazırdı: "Əhəmiyyətli mövzu, monumentallıq, qüvvətli xarakterlər mübarizəsi, daxili dinamika, dramatizm olmayan yerdə yaxşı poema da ola bilməz"[1]. XX əsrdə həm Quzey, həm də Cənubi Azərbaycan ədəbiyyatında poema janrına xüsusi diqqət yetirilmiş və bu janr əsas etibarilə xarakter və konflikt meyarları üzərində sistemləşdirilərək tədqiq edilmişdir. Bu meyara əsaslanan Mehdi Hüseyn yazırdı ki, "ədəbiyyatda, xüsusən də poema janrında xarakter, tip məsələsi olduqca əhəmiyyətli və diqqəti cəlb edən ciddi məsələdir"[2]. Şimalda olduğu kimi, Cənubi Azərbaycan ədəbiyyatında da şair və yazıçılar poema janrında bir sıra tipik xarakterlər silsiləsi yaratmışlar.

IV fəslin **"Poemalarda obrazlılıq: bədii təsvir və ifadə vasitələri"** adlanan sonuncu – dördüncü yarımfəslində isə bədii dilin çox mühüm tərkib hissəsi olan bədii təsvir və ifadə vasitələrindən Cənub şairlərinin necə böyük məharətlə istifadə edərək poemalardamükəmməl metaforlaşma sistemi və bəzəkli, bədii tülə bürünmüş obrazlı dil yaratdıqlarını elmi-filoloji baxımdan dəyərləndirməyə səy göstərmişik.

Dissertasiyanın **Nəticə** hissəsində bu qənaətə gəlinir ki,XX əsr Cənub şairlərinin poetik dünyası, xüsusilə poema yaradıcılığı bütöv Azərbaycan ədəbiyyatının parlaq və möhtəşəm bir səhifəsini təşkil edir. Cənubi Azərbaycanda həyatın burulğanlarına sinə gərən cəsarətli şairlər pleyadası koloritli və heyrətamiz

---

[1] Əhməd V. Cənubi Azərbaycan poeziyası (1950-2010). Bakı: MBM, 2014, s.9.
[2] Qarayev Y. Poeziya və nəsr. Redaktor və ön sözün müəllifi Məmməd Cəfər. Bakı: Yazıçı, 1979, s.78.

bədii söz yaradıcılığı ilə oxucuları cənublu soydaşlarımızın həyata baxışları, yaşamaq eşqi, hansı ideallar uğrunda mübarizə aparmaları, arzu və istəkləri ilə yaxından tanış etməklə yanaşı, hadisələrin bədii, hətta fəlsəfi yöndə dərkində də yardımçımız olur. Cənublu şairlərin yaradıcılığında ictimai motivlər üstünlük təşkil edir. Onlar hətta gül və bülbül haqqında yazanda belə mövzunu siyasiləşdirməyi bacarır, öz oxucuları ilə həmrəy olduqlarını təsdiqləyə bilirlər. Bunun səbəbləri, əlbəttə, qan yaddaşı, xalqın tarixən yaşadığı fəci tale, fəal həyat mövqeyi, sənətkar məsuliyyəti və istedaddır.

Tədqiqatımızda bu gün də dinamik inkişaf yolu keçən çağdaş Cənubi Azərbaycan ədəbiyyatında poema janrı, onun təşəkkülü, inkişaf mərhələləri və poetika məsələlərini araşdırarkən, əsasən, 1920-ci ildən sonrakı dövrdə yaradılan əsərlər üzərində durduq. Əldə etdiyimiz poema nümunələri ilə tanış olarkən bu qənaətə gəldik ki, ictimai-fəlsəfi fikrin müasir ədəbi istiqamətlərə uyğunlaşdırılaraq yayılması Cənubi Azərbaycan ədəbiyyatının, o cümlədən epik şeirin də, demək olar ki, əsas ideya-məzmun məqsədi və perspektividir.

Adi şeir parçasından böyük həcmli, şaxələnən süjet xəttinə malik olan, epik təfəkkürü büsbütün əhatə edən poema janrına keçid, şübhəsiz ki, birdən-birə baş verməmişdir. Bu hadisəni bütün kiçik detalları ilə təsəvvürdə canlandırmaq üçün tarixə, yəni bədii təfəkkürün keçdiyi yollara nəzər saldıq və bu qənaətə gəldik ki, çağdaş Güney ədəbiyyatında epik janra müraciət daha çox funksional xarakter daşıyır, yəni, indi şairlər daha çox lirik janrlara üstünlük verirlər. Ancaq həyatın ritmi, dünyada baş verən qlobal hadisələr elə bir şəkil alıb ki, bunların epik baxımdan ümumiləşdirilməsi həyati vacib məsələ kimi qarşıda dayanır. Bu səbəbdən poema janrına yalnız həyati vacib hadisələr müəyyən mərhələyə yetişdikdə, onun nəticələri aydın olduqda və Güney Azərbaycan xalqının həyatı ilə birbaşa bağlı olduqda müraciət edilir.

Çağdaş Cənubi Azərbaycan ədəbiyyatında ilk poemanın yaradıcısı Məhəmməd Hidəçidir. Lakin mütəfəkkir şairin əsərləri 1930-cu illərədək çap edilmədiyindən, bu missiya Mirzadə Eşqinin çiyinlərinə düşmüşdür. Türk əsilli, demokratik fikirli mübariz şair olan Mirzadə Eşqinin fars dilində yazdığı "Üç tablo", "Eşqinin idealı", yaxud da "Bir qoca kəndlinin idealı" adlandırılan poemasını çağdaş dövrdə qələmə alınmış ilk mətbu poema nümunəsi sayırıq. M.M.Etimadın XX əsr Azərbaycan ailəsindəki real mənzərəni əks etdirən sosial-ictimai məzmunlu "Gəlinlər bəzəyi" (1941) poeması isə bu mərhələdə Azərbaycan türkcəsində yazılmış ilk poema nümunəsidir. Sonrakı mərhələlərdə ənənənin daşıyıcıları ustad M.Şəhriyar, H.Sahir, H.Tərlan, H.Nasiri, K.M.Sönməz, H.M.Savalan, A.Bariz, H.Nitqi, B.Muğanoğlu, B.Dövlətabadi, Ə.N.Oxtay, H.Cəfəri, M.C.Hüseyni, K.Xiyav və b. olmuşlar.

Çağdaş Cənubi Azərbaycan şairləri, Kiyan Xiyav istisna olmaqla, poema janrına "Heydərbabaya salam" poeması yarandıqdan sonrakı mərhələdə, yəni, 1960-80-ci illərdə olduğu kimi intensiv müraciət etmirlər.

Cənubda ədəbi dilin inkişafının ləngiməsi bir ədəbi təzahür kimi poema janrında da müşahidə olunur.

Modern poemaların əksəriyyətində vahid və sistemli süjet xətti yoxdur.

Poemalarda Cənubi və Şimali Azərbaycan xalqının taleyüklü məsələlərinin, o cümlədən Urmu gölünə poetik münasibət (Dədə Katib, İsmayıl Ülkər, Azəryar Danişvər və başqalarının poemalarında) və Qarabağ hadisələrinin bədii təcəssümü (Əli Daşqın, Huşəng Cəfəri, Atilla Maralanlı) oxucunu dərindən düşündürür.

Çağdaş poeziyada müşahidə olunan ədəbi təmayüllər, müxtəlif estetik-fəlsəfi cərəyanlara meyllər, intellektual düşüncənin önə keçməsi müşahidə olunur.

Çağdaş poemalarda xarakterik obrazlar yaradılmış, dövrün, mühitin bədii təcəssümü də verilmişdir.

Ədəbi dildə şivəçilik və dialektik səviyyədə, yəni danışıq dilində olsa da, obrazlılıq, lakoniklik və milli kolorit ön plandadır.

Cənubi Azərbaycan demokratik ədəbiyyatını yaradan şairlər üçün poema ən uğurlu ədəbi janr olmuşdur. Buna görə də istər mövzu dairəsinə, istərsə də bədii sənətkarlıq məziyyətlərinə görə bu janr daim inkişaf etmiş, təkmilləşdirilmişdir. Lakin bu təkmilləşmə prosesinin özündə belə janrın ayrı-ayrı mərhələləri bir-birinə bənzəmir.

Dissertasiya boyu Cənub yazarlarının baş verən hadisələri epik formada yaradarkən həmişə xəyalla həqiqəti, real gerçəkliklə utopik aləmi bir araya sığışdırmağa cəhd göstərmələrindən bəhs etmişik. Poema janrı, dastan paradiqması, zənnimizcə, məhz belə bir zərurətdən meydana gəlmişdir. Janrdan janra keçid insan yaşantısının tarixini özündə əks etdirir, bu mənada bədii ədəbiyyat nümunələri, xüsusən poema janrı insanlıq tarixinin yalnız qəlblə hiss edilən tərəflərini öyrənmək baxımından son dərəcə böyük maraq kəsb edir. Cənubi Azərbaycan ədəbiyyatında poema janrının keçən əsrin 60-cı illərindən sonrakı dövrdə vəziyyətinin tədqiqi isə göstərir ki, bu zaman kəsiyində istər məzmun, istərsə də forma cəhətdən bir-birindən tamamilə fərqlənən, xeyli zənginləşmiş, dəyərli əsərlər qələmə alınmışdır. Arazın o tayında qalan qırx milyona yaxın cənublu qan qardaşımızın öz milli istiqlaliyyəti uğrunda qutsal mübarizəsini, xalqlar arasında nifaq toxumu səpən xarici qüvvələrin ifşasını, sülh, bərabərlik və qardaşlığı təbliğ edən, sovet ictimai quruluşunun İrandakı monarxiya idarə üsulundan üstünlüklərini, ailə-məişət, məhəbbət, sənət və sənətkar problemləri və s. kimi mühüm məsələləri təsvir və tərənnüm edən poema janrı bir sıra elmi əsərlər üçün geniş material verir. Təqdim olunan tədqiqat bu sahədə atılmış ilk addımdır. Poema janrının gələcəkdə daha dərindən, ətraflı tədqiq edilməsi Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran təxirəsalınmaz və şərəfli vəzifələrdən biridir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıda qeyd olunan elmi işlərində əks olunmuşdur:**

1. Şükürova (Fuad) E. Söz sərrafi Şəhriyar. Avrasiya Beynəlxalq Mətbuat fondu, Bakı: 2010, 304 s.
2. Muhammet Huseyin Şehriyar (Yaşamı, ortamı, bedii irsi) (monoqrafiya). İstanbul: Peon Atlantic, 2013, 376 s.
3. Güney Azərbaycanda çağdaş ədəbi proses (2011-2014) (monoqrafiya). Bakı: "Hədəf" nəşrləri, 2016, 176 s.
4. Cənubi Azərbaycanda ədəbi mühit // Ədəbi proses - 2013, Bakı: "Hədəf" nəşrləri, 2014, 240s., s.184-236
5. Şəhriyar-Türk dünyasının sənət dahisi // "Elmi araşdırmalar" jurnalı, (Elmi-nəzəri məqalələr toplusu), 2001, sayı 1-2, s. 87-90.
6. "Şəhriyar" yaradıcılığının poetik qaynaqları / Şairin şifahi xalq ədəbiyyatı ilə yaradıcılıq əlaqəsi, Beynəlxalq Şəhriyar konqresinin materialları, "Didare-aşena", Tehran: çap-e "Peykara", 1387(2006), s.281-320.
7. K.M.Sönməzin poemalarında mənəviyyat məsələləri // Ədəbiyyat məcmuəsi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri, XIX c., Bakı: Elm, 2006. s.140-153.
8. "Səhəndiyyə"poemasında Azərbaycan şifahi xalq ədəbiyyatının izləri // "Elmi axtarışlar" jurnalı, 2009, Sayı 6, s.171-175.
9. Əsir ellərin taleyini yazan şair // "Azərbaycan" jurnalı, 2011, Sayı 6, s.183-189.
10. H.M.Savalanın "Apardı seller Saranı" poemasında muhabbet felsefesi// "Türkbilim" dergisi, Türkiyə, İstanbul: 2002, s.49-56.
11. "Heydərbabaya salam" poeması və Azərbaycan şifahi xalq ədəbiyyatı, "Elmi axtarışlar" jurnalı, 2010, Sayı 1, s.67-74.
12. İnsanlarda insanlığı xoşlayın! (Şəhriyarın humanizmi haqqında qeydlər) // "Elmi araşdırmalar" jurnalı (Elmi-nəzəri məqalələr toplusu), VII buraxılış, Bakı: Günəş, 2004, s.95-99.
13. Şəhriyar və Türkiyə. Söz mülkünün Şəhriyarı // Şəhriyarın anadan olmasının 105 illiyinə həsr olunmuş "Məhəmmədhüseyn Şəhriyar: ədəbi təsir və əlaqələr" mövzusunda beynəlxalq konfransın materialları, Bakı: "Bakı çap evi", 2011, s.61-72.
14. Mirzadə Eşqinin poemalarında ideya xüsusiyyətləri // "Elmi araşdırmalar" jurnalı (Elmi-nəzəri məqalələr toplusu), IX buraxılış, 2012, s.171-182.
15. "Təbriz" poeması qədim şəhərin bədii salnaməsidir, "Sivilizasiya" jurnalı, Bakı Avrasiya Universitetinin nəşri, Bakı: 2013 № 4, s.86-96.
16. "Ərk qalası əfsanəsi" poemasında bəşəri motivlər: Məhəbbət və sədaqət // "Şərq filologiyası məsələləri" (Məqalələr toplusu, VII buraxılış), Bakı: "MA Kompani", 2013, s.532-542.
17. M.N.Doğanın "Ağrı dağına salam" poeması da "Heydərbaba" karvanında əbədiyyətə doğru yol getməkdədir / Türkiyə Cümhuriyyətinin yaranmasının 90 illiyinə həsr olunmuş Beynəlxalq Elmi konfransınmaterialları, Bakı: 28 oktyabr, 2013, s.148-156.

18. Mir Mehdi Etimad və "Gəlinlər bəzəyi"//"Şərq filologiyası məsələləri" jurnalı, VI buraxılış, Bakı: 2012, s.600-607.
19. Ədəbiyyatımızın üfüqləri. H.M.Savalan haqqında. "Varlıq" jurnalı, Tehran: 2013, Sayı 168, s.58-70.
20. Yunus Əmrə və Səhənd yaradıcılığında ağac arxetipi ("Sazımın sözü" poeması və "Ağac"şeirləri əsasında) /"Yaşayan Yunus Əmrə" Beynəlxalq elmi konfransının materialları. Bakı: "Elm və təhsil", 2014, səh.635-653.
21. Güney şairlərinin poema yaradıcılığında epitetlər // Elmi araşdırmalar (Elmi-nəzəri məqalələr toplusu), X buraxılış, Bakı: 2015, s.148-157.
22. Common values in the Shahriyar's and Michai Eminescu's activitie (On the basis of "Sahandiyya" and "Luchaferul" - "Morning star" poems), Studia et Documenta Turcologica, 1/2013, page 39-53.
23. Предание героизма иликодекспатриотизма впоеме Мухаммеда Бирия "Герой Азербайджана" / Материалы IV Всероссийской (орно-заочной) научно–практичеслой конференции. ИнкоДербент, 2013. с.217-220.
24. Common values in the Shahriyar's and Michai Eminescu's activitie (On the basis of "Sahandiyya" and "Luchaferul"-"Morning star" poems)" / Romanoslavica Vol.XLIX nr.1. Editura universitatii din Bucureşti-2013, page 187-201.
25. Şəhriyar və Şərq şeiri ənənələri, Azərbaycan şərqşünaslıq elminin inkişaf yolları / Akademik Vasim Məmmədəliyevin 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın materialları, Bakı, 2013, s.184-191.
26. Klassik ənənə və müasirlik: Mahmud Sadıqpur Şaminin poemalarında xalq təfəkkürünün təzahürü // Çağımızdan görünən orta əsrlər. Professor R.Azadəyə həsr olunmuş II Beynəlxalq konfransın materialları, 15-16 dekabr 2014, s.309-315.
27. Güney şairlərinin poema yaradıcılığında tarixilik və müasirlik // "Ədəbiyyat məcmuəsi" (Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri), XIX c., Bakı: Elm, 2015, s.333-344.
28. Haşim Tərlan. XX əsr Cənubi Azərbaycan Ədəbiyyatı tarixi. 2 cilddə, I c., Bakı: Qanun, 2013, s.497-512.
29. Həsən Məcidzadə Savalan, XX əsr Cənubi Azərbaycan Ədəbiyyatı tarixi. 2 cilddə, I c., Bakı: Qanun, 2013, s.573-585.
30. Kərim Məşrutəçi Sönməz. XX əsr Cənubi Azərbaycan Ədəbiyyatı tarixi, II cilddə, I c., Bakı: "Qanun", 2013, s.475-497.
31. Mir Mehdi Etimad. XX əsr Cənubi Azərbaycan Ədəbiyyatı tarixi. 2 cilddə, I c., Bakı: Qanun, 2013, s.256-271.
32. Güney Azerbaycan edebiyatinda modernleşme aşamalari // Türkiye, İstanbul:www.akademiktarihvedusunce.org/ Akademik Tarih ve Düşünce Dergisi Academic Journal of History and Idea, 2014/Cilt: 1/Sayı:3/ Ağustos.
33. Şəhriyarın "Heydərbabaya salam" və "Səhəndim" poemalarına edilən təhriflər və təsir dairəsi... // "Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Bakı:Elm və təhsil, 2015, s.225-231.

46. M.Ə.Harayın "Yandırılan sazlar" və "Tarçı Şulan" poemalarında tarixi həqiqətin poetik ifadəsi // Filologiya məsələləri jurnalı, 2016, №1, s.514-522
34. Urmu hadisələri və Güney Azərbaycan epik şeiri// "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: 2016, № 1(97), s.267-271.
35. Hadi Qaraçayın "Sonsuzluq" poemasında Azərbaycan tarixinə poetk baxış... // "Sivilizasiya" Bakı Avrasiya Universitetinin nəşri, Bakı: 2016, № 1, s.54-61.
36. Güney Azərbaycan ədəbiyyatında poema janrının təşəkkülü // AMEA-nın Xəbərləri. Humanitar elmlər seriyası. Bakı: "Elm", 2016, s.106-114.
37. XX əsr Güney Azərbaycan epik şeirinin tədqiqi problemləri // Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri), XIX c., Bakı: Elm və təhsil, 2016, s.76-87.
38. Huşəng Cəfərinin yaradıcılığında milli düşüncənin bədii inikası // Filologiya məsələləri , № 3, 2016, s.320-329.
39. Zəncirlənmiş sevda ("Şahin zəncirdə" poemasında milli azadlıq duyğularının tərənnümü) // Ədəbi əlaqələr jurnalı (AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun toplusu), 2016, №1, s.275-280
40. "Azərbaycan əsgəri", yaxud Məhəmməd Biriyanın qəhrəmannaməsi //Filologiya məsələləri, № 5, 2016,s.272-276.
41. Güney Azərbaycan ədəbiyyatında poema janrının təşəkkülü tarixindən // Formation and Development of Epic Poem in the Southern Azerbaijani Literature. Journal: BEST: ILHAMS-Journals, ISSN(P): 2348-0521: ISSN(E): 2454-4728: Impact Factor (JCC) 1.9287 (Volume 4, Issue 7, July 2016) Page: 24-31.
42. Cuisine of Tebriz in the poetry of Shahriyar.Journal : IMPACT: International Journal of Research in Humanities, Arts and Literature (IMPACT : IJRHAL ) (Vol.4, No. 11) Page:9-1.
43. Poetry Customs and Traditions of Shahriyar: Shahriyar and "Sahandim". Khazar Journal of Humanities and Social Sciences Volume 20 № 3 2017, 126-145.
44. "Women in the poetry of Shahriyar". İranian Studies. Print ISSN: 0021-0862 Online ISSN: 1475-4819 6 issues per year 2015 Impact Factor 0.802 Ranking: 131/230 (Education & Literature Research) © 2017 Thomson Reuters, 2017 Journal Citation Reports® (Publisher: Taylor & Francis) in Volume 51, Issue 4, pp.510-521, 2018 .

**Esmira Seyfel gizi Shukurova**

**Epic poem genre of XX century Southern Azerbaijan literature: development stages and problems**

**SUMMARY**

The dissertation examines actual problems of the development of the South Azerbaijan literature in XX century.

Dissertation consists of introduction, four chapters and conclusion. In the first chapter of dissertation named as “Research issues and formation of epic poem genre in Southern Azerbaijan literature” consisits of four semi chapters. In the first semi chapter entitled "Stages of the formation and development of the genre of the epic poem", for the first time in all Azerbaijan literary studies, the development stages of epic poem genre in 20th century Southern Azerbaijan are observed, comprehensive literary materials have been classified and systematized.

In the second semi chapter of first chapter called “Originality of folklore and its manifestation forms” the origins of the national identity in epic poems which are emerged in Southern Azerbaijan are sought in the narrative novel and folklore relations, the main source of the epic poem genre was coordinated.

In the third semi chapter “The influence of classical poetry on epic poem genre creation” for the first time on the basis of concrete samples the fact of development of epic poem genre which derived benefit from classical literature has been investigated. In the fourth semi chapter called “From the history of the genre” a number of research works have been included in the study.

In the second chapter named as “New inclinations and tendencies in the development of the epic poem genre” works written at the beginning of XX century in the period of Reza Shah’s despotism and World War II have been scrutinized, besides a number of works by M.Eshqi, M.Hidachi, M.M.Etimad, M.Ganizade, H.Nasiri and venerable Shahriyar have been analyzed.

Some issues like “The unity of the tradition and innovation”, “Idea-content features”, “New poetry traditions: manifestation of modernism”, “Historicity and modernity”, “Subject field:traditional images in the context of new content” have been clarified under the same titles in the third chapter named as “Tradition and modernity in epic poems”.

The fourth chapter entitled "The poetic system of the epic poem of Southern Azerbaijan" which consists of four sections was dedicated to the genre classification of epic poems and questions of imagery in them.

In the conclusion scientific findings in the dissertation work have been summarized.

**Эсмира Сейфал кызы Шукюрова**

## Жанр поэмы в литературе Южного Азербайджана XX века: этапы развития и проблемы


## РЕЗЮМЕ

В диссертации исследуются актуальные вопросы развития жанра поэмы в литературе Южного Азербайджана XX века.

Диссертация состоит из введения, четырех глав, заключения и списка использованной литературы.

I глава диссертации под названием «Вопросы становления и исследования жанра поэмы в литературе Южного Азербайджана» состоит из четырех разделов. В первом разделе, названном «Этапы становления и развития жанра поэмы», впервые в всем азербайджанском литературоведении прослеживаются этапы развития жанра поэмы в Южном Азербайджане XX века, систематизируются широкие по охвату художественные материалы. Во втором разделе под названием «Фольклорные истоки и формы их проявления» корни национального своеобразия в поэмах, созданных в Южном Азербайджане, отыскиваются, прежде всего, в связях стихотворного романа – дастана и фольклора, основным источником жанра поэмы выступает фольклор. В третьем разделе под названием «Влияние классической поэзии на создание поэмы» впервые на основе конкретных примеров исследуется влияние классической поэзии на развитие жанра поэмы в литературе Южного Азербайджана. В четвертом разделе под названием «Из истории исследования жанра поэмы» к рассмотрению привлекаются исследовательские работы, написанные в связи с темой диссертации.

Во II главе под названием «Новые тенденции и направления в развитии жанра поэмы», состоящей из четырех разделов, рассматриваются поэмы, созданные в XX веке, охватывающем период деспотического правления шаха Рзы и годы II Мировой войны, анализируется ряд поэм М.Эшги, М.Хидачи, М.М.Этимада, М.Ганизаде, Х.Насири и Шахрияра.

В III главе под названием «Проблема традиции и современности в поэмах» в пяти разделах под одноимёнными заголовками вносится ясность в такие вопросы, как поиски нового содержания в контексте традиционности и современности, проявление модернистского течения в поэмах, эпическое изображение историзма в контексте современности, отображение идейных особенностей в поэмах, тематика поэм.

IV глава под названием «Поэтическая система эпического стихотворения Южного Азербайджана», состоящая из четырех разделов, посвящена жанровой классификации поэм и вопросам образности в них.

В заключении обобщаются результаты проведённого исследования.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖАВИ**

***На правах рукописи***

**ЭСМИРА СЕЙФАЛ кызы ШУКЮРОВА**

# ЖАНР ПОЭМЫ В ЛИТЕРАТУРЕ ЮЖНОГО АЗЕРБАЙДЖАНА XX ВЕКА: ЭТАПЫ РАЗВИТИЯ И ПРОБЛЕМЫ

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора наук по филологии**

**БАКУ–2018**